# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 2020-Cİ İL ƏRZİNDƏ XİDMƏTİ FƏALİYYƏTİNİN ÜMUMİ NƏTİCƏLƏRİNƏ DAİR

# HESABATI

## I. ÜMUMİ HİSSƏ

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uzaqgörən dünyəvi dövlət quruculuğu və milli inkişaf konsepsiyasının Cənab Prezident İlham Əliyev tərəfindən uğurla və qlobal çağırışlara uyğun davam etdirilməsi nəticəsində ötən illərdə olduğu kimi 2020-ci ildə də ölkə iqtisadiyyatında islahatlar davam etdirilmiş, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft sektorunun təşviqi və qeyri-neft məhsullarının ixracının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar ölkəmizin ümumi iqtisadi inkişaf strategiyasının formalaşmasına və bu strategiyanın uğurla həyata keçirilməsinə etibarlı zəmin yaratmışdır.

Qeyd edilən sosial-iqtisadi inkişafa öz töhfəsini vermək, qarşıya qoyulmuş vəzifə və tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən ötən dövrlərdə olduğu kimi 2020-ci il ərzində də müəyyən edilmiş proqnoz göstəriciləri uğurla yerinə yetirilmiş, gömrük nəzarəti və gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirləri gücləndirilmiş, Komitənin maddi texniki bazası möhkəmləndirilmiş, şəxsi heyətlə aparılan işin səmərəliliyi artırılmışdır.

Gömrük orqanlarının milli iqtisadiyyatın formalaşması və büdcənin təşkilində vacib qurum olmaqla vətəndaşlarla daim açıq təmasda olmasının zəruriliyini nəzərə alaraq, şəffaflığın və hesabatlılığın təmin edilməsi, bürokratik əngəllərin aradan qaldırılması, korrupsiya və digər hüquqpozmaların qarşısının alınması məqsədilə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Korrupsiyaya qarşı mübarizə üzrə 2020-ci il üçün Tədbirlər Planı” hazırlanmış, həyata keçirilən məqsədyönlü profilaktik işlər nəticəsində gömrük orqanı əməkdaşları tərəfindən intizam xətasına yol verilməsi hallarında ötən illə müqayisədə 38,3 faiz azalma müşahidə edilmişdir. Hesabat dövründə korrupsiya hüquqpozması və digər cinayət əməlləri törətməkdə təqsirli bilinən 1 nəfər sabiq gömrük əməkdaşı olmaqla 14 gömrük əməkdaşının əməlinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2020-ci ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Dövlət Gömrük Komitəsinin 23 yanvar 2017-ci il tarixli 01/002 Kollegiya Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2017-2021-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı”nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurmuşdur.

Dünya Bankının Daxili Audit Komitəsi tərəfindən keçirilmiş auditin nəticələrinə uyğun olaraq, Azərbaycan yeganə ölkə kimi irəliləyiş nümayiş etdirərək, “Doing Business 2020” hesabatında mövqeyini 6 pillə yaxşılaşdırmış, növbəti dəfə dünyanın “Ən islahatçı 10 ölkəsi” sırasına daxil olmuş, xüsusilə 3 indikator dəyişikliyə məruz qalmış və “Sərhəddə ticarət”

indikatoru müsbət istiqamətdə əsas ciddi dəyişikliklərə məruz qalan indikatorlardan biri olmuş, ölkəmiz 34-cü pillədən 28-ci pilləyə irəliləmişdir.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2020-ci il Biznes Mühiti Hesabatının gömrük məsələlərinə dair hissəsində son bir neçə ildə gömrük orqanlarının ticarətin asanlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması, korrupsiya və rüşvət hallarının minimuma endirilməsi istiqamətində apardığı genişmiqyaslı işləri təqdirəlayiq hal kimi qiymətləndirilmişdir. Bu kontekstdə birbaşa insan təmasının rolunu məhdudlaşdırmaq üçün elektron gömrük təşəbbüslərinin təkmilləşdirilməsində və müəssisələrin ehtiyaclarını daha dolğun təmin etmək üçün dövlət-özəl sektor dialoqunun inkişafındakı irəliləyiş Azərbaycanda fəaliyyət göstərən xarici müəssisələr tərəfindən yüksək qiymətləndirilmişdir. Alınan rəylər əvvəlki illərdə biznes ictimaiyyəti tərəfindən qaldırılan aktual ehtiyaclardan biri olan Yaşıl Dəhliz rejiminin optimallaşdırılması istiqamətində atılan addımların bəhrəsini verməyə başladığını göstərir. Alman-Azərbaycan Xarici Ticarət Palatasının apardığı sorğuda iştirak edən respondentlərin yarıdan çoxu (58%) gömrük islahatlarını bu ilin ən səmərəli islahatları kimi qiymətləndirərək ilk 5-likdə sıralamışdır.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli, 1853 nömrəli Sərəncamına uyğun olaraq məmur-vətəndaş təmasının minimuma endirilməsi, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə bəyannamələrin rəsmiləşdirilməsi üçün əməkdaşların təyin edilməsində elektron növbə sistemi yaradılmış, hər bir xarici iqtisadi fəaliyyət iştirakçılarına tez bir zamanda yüklərini rəsmiləşdirmələrinə maksimum şərait yaradılmış və bu istiqamətdə işlər mütəmadi olaraq inkişaf etdirilməkdədir.

## KORONAVİRUS PANDEMİYASI İLƏ MÜBARİZƏ VƏ VƏTƏN MÜHARİBƏSİ ZAMANI GÖRÜLƏN İŞLƏR:

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən "Çin Xalq Respublikasının Hubei əyalətinin Uhan şəhərində aşkar olunmuş naməlum etiologiyalı sətəlcəm xəstəliyi - "Koronavirus"un (2019-nCov) ölkəmizin ərazisində yayılmasının qarşısının alınması məqsədilə gömrük sərhəd buraxılış məntəqələrində gücləndirilmiş iş rejiminə keçirilməsi haqqında" 29 yanvar 2020-ci il tarixli 1000/022 nömrəli Sərəncam hazırlanmışdır. Sərəncamla müəyyən edilmiş tapşırıqların icra tədbirləri kimi:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında yeni koronavirus (2019-nCoV) xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı"nın təsdiq edilməsi barədə 30 yanvar 2020-ci il tarixli, 35s nömrəli Sərəncamın 2.5-ci bəndinin icrası ilə əlaqədar Dövlət Gömrük Komitəsi tərəfindən üç dildə (azərbaycan, rus və inglis) "Səhiyyə məqsədləri üçün sərnişin haqqında məlumat təqdimetmə forması" işlənib hazırlanmışdır;
- Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində səyahət edən şəxslər üzərində effektiv nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə ölkənin bütün gömrük sərhəd buraxılış məntəqələrində məsafədən hərarətin ölçülməsi üçün nəzərdə tutulmuş termovizorlar quraşdırılmış, vətəndaşların və nəqliyyat vasitələrinin keçdiyi ərazilərdə, eləcə də koronavirus infeksiyasına yoluxma riski olan digər yerlərdə mütəmadi olaraq dezinfeksiya işləri aparılmış, infeksiyaya yoluxma riskinin azaldılması məqsədilə Komitənin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük

idarələrinin şəxsi heyəti müvafiq fərdi mühafizə vasitələri və digər ləvazimatlarla (termometrlər, əlcək, tibbi maskalar, qoruyucu geyim və dezinfeksiyaedici vasitələr və s.) təmin edilmişdir;

- Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranan sualların cavablandırılması məqsədilə fasiləsiz iş rejimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Çağrı mərkəzində “Qaynar xətt”in fəaliyyəti təmin olunmuşdur;
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin tərkibində yaradılmış müasir “PZR” laboratoriyasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının bütün struktur bölmələrinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin əməkdaşlarının müvafiq qaydada müayinələrdən keçirilməsi işi təşkil olunmuş, COVİD-19 infeksiyasına yoluxmuş gömrük əməkdaşları ilə təmasda olan digər gömrük əməkdaşları, onların müayinədən keçirilmə tarixi və nəticələri barədə məlumatlar aidiyyəti üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilmişdir;
- Koronavirus (COVİD-19) infeksiyasının yayılmasına qarşı profilaktik tədbirlərin aparılması çərçivəsində gömrük sərhəd buraxılış məntəqələrindən keçən şəxslərin və gömrük əməkdaşlarının məlumatlandırılması üçün nəzərdə tutulmuş, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri əsasında posterlər hazırlanaraq bütün gömrük sərhəd buraxılış məntəqələrinə göndərilmişdir;
- Azərbaycan Respublikası dövlət sərhədlərində sanitariya nəzarətinin daha da gücləndirilməsi və müasir çağırışlara cavab verməsi məqsədilə Tibbi Xidmət İdarəsinin tərkibində Sanitar-Karantin Xidməti yaradılaraq, maarifləndirici kitabçalar və təlimatlar hazırlanmışdır;
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin göstərişinə müvafiq olaraq kənd təsərrüfatı və qida sektorunun koronavirus (Covid-19) pandemiyasından daha az zərər görməsi məqsədilə 2020-ci ildə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə əlaqədar təkliflərə dair Komitənin rəy və təklifləri formalaşdırılmış, eləcə də ölkə vətəndaşları və digər əcnəbi vətəndaşlar tərəfindən gömrük ərazisinə gətirilməsinə icazə verilməyən qida məhsullarının siyahısının layihəsi hazırlanaraq Qida Təhlükəsizliyi Agentliyinə təqdim olunmuşdur;
- Koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması istiqamətində sərnişinlər üzərində effektiv nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə ölkənin bütün gömrük sərhəd buraxılış məntəqələrində məsafədən hərarətin ölçülməsi üçün nəzərdə tutulmuş termovizorlar alınaraq quraşdırılmışdır. Belə ki, xəstəliyin yayılmasına qədər gömrük orqanlarında 29 ədəd “FLİR A300” markalı və 18 ədəd “Hikvision” markalı termovizorlardan istifadə olunurdusa, xəstəliyin yayılması dövründə Dövlət Gömrük Komitəsi tərəfindən 100-ə (10 sm məsafədən) yaxın yeni termometrlər alınaraq ərazi və ixtisaslaşdırılmış gömrük orqanları arasında bölgüsü həyata keçirilmişdir;
- Stasionar tipli 2 ədəd “Miracle”, 15 ədəd “Optris” və 12 ədəd daşınan və 5 ədəd stasionar tipli “Hikvision” markalı ən son standartlara cavab verən +/- 0.1-0.3 xətası olan termovizorlar əldə edilərək aidiyyəti üzrə gömrük orqanları arasında bölgüsü aparılmışdır.

Komitənin Tibbi Xidmət İdarəsinin peşəkar tibb kollektivi Vətən Müharibəsində yaralanmış qəhrəman əsgərlərimizin müalicəsində aktiv iştirak etmişdir. Müharibənin ilk

günlərindən səfərbər olunan kollektiv hərbi vəziyyətdə ön və arxa cəbhədə yaralılara zəruri tibbi xidmət göstərmişdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda fəaliyyət göstərən Rusiya Sülhməramlı Kontingentinin təminatı məqsədilə hərbi təyinatlı yüklərin ölkə ərazisinə gətirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq icazələri aidiyyəti ərazi gömrük idarələrinə göndərilmiş və mütəmadi əsasda yüklərə dair hesabatlar təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 noyabr 2020-ci il tarixli 22473 nömrəli göstərişinə uyğun olaraq Dövlət Gömrük Komitəsinin səlahiyyətli nümayəndələrinin iştirak etdiyi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının nümayəndə heyətləri arasında 25 noyabr 2020-ci il tarixdə Bakı şəhərində keçirilmiş işçi görüşdə Dağlıq Qarabağ ərazisində yerləşən Rusiya Federasiyasının sülhməramlı kontingenti üçün nəzərdə tutulmuş hərbi əmlak və humanitar yüklərin daşınması üçün marşrutun yaradılması, daşınmanın mühafizəsi, gömrük nəzarətinin təşkili və digər məsələlər müzakirə edilmişdir.

Dövlət Gömrük Komitəsinin əməkdaşları könüllü olaraq əməkhaqqlarından Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1 milyon manat, Azərbaycan Ordusuna Yardım Fonduna 1 milyon, Yaşat Fonduna 580 min manat vəsait köçürmüşlər. Vətən Müharibəsində Dövlət Gömrük Komitəsinin 60 nəfər əməkdaşı iştirak etmiş, Komitə tərəfindən Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidmətinə, ümumilikdə dəyəri 7 milyon 600 min manatdan çox qeyri-ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar təhvil verilmişdir.

## II. QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən aşağıda qeyd olunan bir sıra qərar, qanun, sərəncam layihələri hazırlanmış və müvafiq qaydada qüvvəyə minmişdir.

1. “Gömrük sistemində həyata keçirilmiş islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Dövlət Gömrük Komitəsinin müvafiq Sərəncamının icrasından irəli gələrək qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Qanun layihəsi və əlavə layihə olaraq qeyd olunan qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi 1000-210/001-21/004582 nömrəli 28.02.2020-ci il tarixli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və qəbul olunmuşdur.

2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Valyuta tənzimi haqqında” Qanuna dəyişiklik edilməsi haqqında 1000-210/001-21/006131 nömrəli 20 mart 2020-ci il tarixli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və baxılmaqdadır.

3. “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi 10 yanvar 2020-ci il tarixli 1000-210/001-21/000353 nömrəli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmişdir.

4. “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan

Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 1000-210/001-21/006132 nömrəli 20 mart 2020-ci il tarixli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və 21 avqust 2020-ci il tarixli 1144 nömrəli Fərmanla təsdiq olunmuşdur.

5. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar” layihəsi 10 yanvar 2020-cu il tarixli 1000-210/001-21/000353 nömrəli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və hal-hazırda baxılmaqdadır.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.08.2019-cu il tarixdə keçirilmiş iclasın 8 nömrəli protokolunun icrasından irəli gələrək beynəlxalq təcrübə nəzərə alınmaqla Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nda dəyişikliklər edilməsi barədə qərar layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və 303 nömrəli 21 avqust 2020-ci il tarixli Qərarla təsdiq edilmişdir.

7. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İnzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsi 1000-210/001-21/010862 nömrəli 17.06.2020-ci il tarixli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmiş və 30 iyul 2020-ci il tarixli 275 nömrəli qərarla təsdiq olunmuşdur.

8. “Baku Caspian Hospital” Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tabeliyinə verilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncam layihəsi hazırlanmış və 17 aprel 2020-ci il tarixli 161s nömrəli Sərəncamla təsdiq olunmuşdur.

9. “Dənizçilər poliklinikası” Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tabeliyinə verilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyul 2020-ci il tarixli 399s nömrəli Sərəncamı ilə qəbul olunub.

10. “Xarici ticarət fəaliyyətinin tənzimlənməsi haqqında’’ Azərbaycan Respublikası Qanunu və əlavə layihə olaraq hazırlanmış “Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

11. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə” və “İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında aparılan malların

Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihələri 1000-120/003-21/023559 nömrəli 02 dekabr 2020-ci il tarixli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və baxılmaqdadır.

12. "Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi, ifa edilən zaman əsgəri salam verilməsi, dinlənilməsi və oxunması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2020-cu il iyun 03 tarixli "1000/03/001" nömrəli Kollegiyasının qərarı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 09 iyun 2020-ci il tarixdə 15202006033001 qeydiyyat nömrəsi ilə daxil edilmiş və 10 iyun 2020-ci il tarixdə qüvvəyə minmişdir.

13. "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının daşınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 28 dekabr 2020-ci il tarixli "1000/04/002" nömrəli Kollegiyasının Qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmuşdur.

14. "Ümumdünya Poçt İttifaqının Aktlarında nəzərdə tutulmuş sənədlərlə müşayiət olunan beynəlxalq poçt göndərişləri ilə göndərilən malların gömrük rəsmiləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 22 iyul 2014-cü il tarixli 100/02/004 nömrəli Kollegiyasının qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 07 yanvar 2021-ci il tarixdə 15202012280001 qeydiyyat nömrəsi ilə daxil edilmiş və 08 yanvar 2021-ci il tarixdə qüvvəyə minmişdir.

15. "Azərbaycan Respublikası gömrük xidmətində risklərin idarəolunması sisteminin Konsepsiyası" və "Risklərin idarəolunması sisteminin tətbiqinin strategiya və taktikasının, informasiyanın toplanma və emal qaydasının, risklərin təhlilinin və qiymətləndirilməsinin aparılmasının, risklərin idarə edilməsi üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi Qaydası" layihələri hazırlanmışdır.

16. Ötən ilin mart ayında Ümumdünya Gömrük Təşkilatı tərəfindən "Gömrük Risklərinin İdarəolunması üzrə Diaqnostik Hesabat"a uyğun olaraq bir sıra sənədlər və proseslər üzrə monitorinq aparılmışdır. Bu istiqamətdə "Risk Çərçivə Sənədi" layihəsi beynəlxalq təcrübəyə uyğun formatda hazırlanmaqdadır.

17. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"na dəyişiklik edilməsi haqqında layihə hazırlanmışdır.

18. Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2018-ci il tarixli 431 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə"nin 4.3.1-ci və 4.7.4-cü yarımbəndlərinin tələblərinə əsasən "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Sərhəddə Ticarət" işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı" layihəsi 05 dekabr 2020-ci il tarixli 1000-130/006-21/023713 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il üçün İş Planının 11-ci bəndinə uyğun olaraq "Xarici ticarət əməliyyatları üzrə "E-pəncərə" sisteminin tətbiq olunması barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi hazırlanmış və

münasibət bildirilməsi üçün müvafiq məktublarla Azərbaycan Respublikasının Ədliyyə və İqtisadiyyat Nazirliklərinə göndərilmiş, verilmiş rəy və təkliflər əsasında sənəd layihəsi yekunlaşdırılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

20. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və aidiyyəti digər qurumlarla birgə hazırlanmış "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 noyabr 2020-ci il tarixli 436 saylı qərarı ilə təsdiq edilmişdir.

21. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və aidiyyəti digər qurumlarla birgə hazırlanmış "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 fevral 2020-ci il 38 saylı qərarı ilə təsdiq edilmişdir.

22. Ticarətin asanlaşdırılması üsullarından biri olan "Məcburi qərarlar" sisteminin tətbiqi çərçivəsində qaydalar layihəsi hazırlanmış, o cümlədən sözügedən sahə üzrə Azərbaycan Respublikası Gömrük Məcəlləsinə aidiyyəti dəyişikliklərin həyata keçirilməsi məqsədilə müvafiq təkliflər Azərbaycan Respublikası Nazirlər Kabinetinə 29 dekabr 2019-cu il tarixli 100-210/001-21/025866 nömrəli məktubla ünvanlanmış və hal-hazırda Nazirlər Kabineti tərəfindən məsələyə baxılmaqdadır.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 avqust 2019-cu il tarixdə keçirilmiş 8 nömrəli iclas protokolunun icrasından irəli gələrək Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin yekun layihəsi hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilmə ərəfəsindədir.

Yuxarıda qeyd olunan qanunvercilik aktları ilə yanaşı, gömrük işini nizama salan və tənzimləyən Komitə daxili Sərəncamlar, Kollegiya Qərarları hazırlanaraq təsdiq edilmişdir.

## III. GÖMRÜK TARİFLƏRİNİN TƏNZİMLƏNMƏSİ, GÖMRÜK ÖDƏNİŞLƏRİNİN TOPLANILMASI, BÜDCƏ XƏRCLƏRİ, TƏCHİZAT ÜZRƏ GÖRÜLƏN İŞLƏR

2020-ci il ərzində ixrac əməliyyatlarının statistik dəyəri 13 740 567,63 min ABŞ dolları, idxal əməliyyatlarının statistik dəyəri 10 730 720,22 min ABŞ dolları, ümumilikdə xarici ticarət dövriyyəsinin həcmi 24 471 287,85 min ABŞ dolları olmaqla, 3 009 847,41 min ABŞ dolları məbləğində müsbət saldo yaranmışdır. 2019-cu illə müqayisədə 2020-ci ildə ixrac əməliyyatlarının statistik dəyəri 30,02% və ya 5 894 635,13 min ABŞ dolları, idxal əməliyyatlarının statistik dəyəri 21,49% və ya 2 936 755,50 min ABŞ dolları, ümumilikdə xarici ticarət dövriyyəsinin həcmi 26.52% və ya 8 831 390,63 min ABŞ dolları həcmində azalmışdır.

2019-cu il ərzində ixrac əməliyyatlarının dəyəri 19 635 202,76 min ABŞ dolları, idxal əməliyyatlarının statistik dəyəri 13 667 475,72 min ABŞ dolları, ümumilikdə xarici ticarət dövriyyəsinin həcmi 33 302 678,48 min ABŞ dolları olmaqla, müsbət saldo 5 967 727,04 min ABŞ dolları təşkil etmişdir.

Hesabat dövründə idxal gömrük rüsumundan azad olunan idxal əməliyyatlarının həcmi 6 331 856,06 min ABŞ dolları və ya 59,01%, əlavə dəyər vergisi üzrə isə azad olunan idxal əməliyyatlarının həcmi 2 737 637,90 min ABŞ dolları və ya 25,51% təşkil etmişdir.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanununa əsasən 2020-ci il ərzində Dövlət Gömrük Komitəsi üçün müəyyənləşdirilən 3 milyard 830 milyon manat proqnoza qarşı 3 milyard 938 milyon 242 min manat gömrük ödənişlərinin toplanaraq

dövlət büdcəsinə köçürülməsi təmin edilmiş və büdcə öhdəliyinə 102,83 faiz əməl olunmuşdur.

Qeyd edək ki, 2019-cu il ərzində Dövlət Neft Fondu və Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti tərəfindən ölkə ərazisinə gömrük vergi və rüsumlarından azad olunmaqla idxal edilən qızılın həcmi 2 127 794,52 min ABŞ dolları təşkil etmişdir.

2021-ci il üzrə Dövlət Gömrük Komitəsi üçün 3 milyard 900 milyon manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

2020-ci il ərzində fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrindən valyuta sərvətlərinin keçirilməsinə nəzarət edilmiş, fiziki şəxslər tərəfindən milli və xarici valyutanın Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı aylıq statistik məlumatlar Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün bankların müraciətlərinə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq aidiyyəti üzrə baxılmış və müvafiq qaydada reyestrə daxil edilmişdir.

“Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı “Tədbirlər Planı”nın müvafiq bəndlərinin icrası məqsədilə hazırlanmış qərar layihələrinə aidiyyəti üzrə rəy və təkliflər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir.

Beynəlxalq avtomobil daşımalarını həyata keçirən xarici dövlətlərin nəqliyyat vasitələrinə tətbiq edilən icazə blanklarının elektron tətbiqinə və uçotuna dair Texnoloji Sxem hazırlanmış, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə razılaşdırılmış və 01 yanvar 2021-ci tarixdən icazə blanklarının elektron formada tətbiqinə başlanılmışdır.

Hasilatın pay bölgüsü sazişlərinə əsasən idxal, ixrac rüsumları və vergiləri haqqında protokola əsasən neft-qaz əməliyyatları üzrə təsərrüfat subyektlərinə qanunla nəzərdə tutulmuş qaydada gömrük ödənişlərindən azadolma hüququ verən 146 sertifikat verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2009-cu il tarixli 767-IIIQ saylı Fərmanı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və Azərbaycan Respublikasının Prezidentinin 21 oktyabr 1994-cü il tarixli 910 saylı Fərmanı ilə təsdiq edilmiş “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq bəndlərində nəzərdə tutulmuş əməliyyatlar barədə məlumatlar mütəmadi olaraq Maliyyə Monitorinqi Xidmətinə ötürülmüş və şübhəli bilinən hallar olduqda bu barədə Əməliyyat – İstintaq Baş İdarəsi məlumatlandırılmışdır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən daxil olan məktublar əsasında sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı ilə bağlı məlumatların Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin vahid avtomatlaşdırılmış idarəetmə sisteminin reyestrinə yerləşdirilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Energetika Nazirliyindən daxil olmuş məktublar əsasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Neft Emalı Zavodunun modernizasiya və yenidənqurma layihəsi çərçivəsində aparılan təmir və tikinti işləri üçün ölkəyə gətirilən avadanlıqlar və materiallarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarının 4.30-cu bəndinə əsasən idxal rüsumundan azad olunmasına dair məlumatların Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin VAİS reyestrinə yerləşdirilməsi təmin edilmişdir.

BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında imzalanmış 09 iyul 2020-ci il tarixli Razılaşmaya əsaslanaraq, “Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü Sərhəd Keçid Məntəqəsinin İnkişafına Dəstək” layihəsi çərçivəsində hər birinin dəyəri 21 930,00 manat olan 10 ədəd əvəzsiz olaraq verilmiş “FİAT Doblo Panorama Pop” markalı avtonəqliyyat vasitələri Dövlət Gömrük Komitəsinin balansına götürülmüşdür.

ABŞ-ın Müdafiə Departamenti ilə həyata keçirilən layihə çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə əvəzsiz olaraq verilmiş hər birinin dəyəri 136 776,30 manat olan 2 ədəd 2020-ci il buraxılışlı, “CAT TL 1055 D” markalı yükləyicilər Dövlət Gömrük Komitəsinin balansına götürülmüşdür.

“Azərbaycanda beynəlxalq qabaqcıl təcrübə və standartlar əsasında sərnişin yoxlama və sənədləşmə əməliyyatları üzrə bacarıqların artırılması” layihəsi çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyi tərəfindən ümumi dəyəri 5 447,50 manat olan, əvəzsiz olaraq verilmiş avadanlıqlar Dövlət Gömrük Komitəsi sədrinin 28 avqust 2020-ci il tarixli 1000/172 saylı sərəncamı ilə Komitənin balansına götürülmüşdür.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan “Dənizçilik poliklinikası” Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tabeliyinə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyul 2020-ci il tarixli 399s nömrəli sərəncamı və Dövlət Gömrük Komitəsinin 04 avqust 2020-ci il tarixli 1000/156 nömrəli sərəncamı ilə yaradılmış təhvil-təslim komissiyasının 17 avqust 2020-ci il tarixli təhvil-təslim aktına əsasən Bakı şəhəri, Yasamal rayonu, Kazım Kazımzadə küçəsi, ev 120A ünvanında yerləşən, ilkin balans dəyəri 1 341 328,48 manat olan inzibati bina, yardımçı binalar və həmin ünvanda olan əsas vəsaitlər Komitənin Tibbi Xidmət İdarəsinin balansına götürülmüşdür.

Dövlət Gömrük Komitəsi ilə “Smiths Heimann” (Smiths Detection GmbH) şirkəti arasında X-ray avadanlıqlarının əldə edilməsinə dair 02 sentyabr 2020-ci il tarixdə 0209-20 nömrəli müqavilə bağlanılmışdır. Müqavilə əsasında tələb olunan rentgen avadanlıqlarının alınması həyata keçirilməkdədir.

## IV. GÖMRÜK RİSKLƏRİNİN İDARƏ OLUNMASI VƏ AUDİT ÜZRƏ GÖRÜLƏN İŞLƏR

Azərbaycan Respublikası Prezidentinin “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 4 mart tarixli 1853 nömrəli, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli sərəncamlarına və digər hüquqi aktlara uyğun olaraq, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə “Yaşıl dəhliz”, eləcə də beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılmasının təmin edilməsi və digər istiqamətlərdə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

İdxal olunan malların gömrük dəyərinin və çəkisinin düzgün bəyan olunmaması nəticəsində yaranan fiskal risklərin insan amili olmadan avtomatik olaraq aşkar edilməsi məqsədilə elastiklik göstəricilərinin avtomatlaşdırılması istiqamətində beynəlxalq statistik modellərdən istifadə edilməklə təhlillər aparılır.

Hesabat dövründə 29 risk profili deaktiv edilərək 91 yeni risk profili sistemə əlavə edilmişdir. Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə mal kodlarının, gömrük dəyərinin düzgün bəyan olunmaması, idxal olunan mallar üzrə çəki fərqləri təhlil edilmiş riskli mal mövqeləri, həmçinin bir sıra risk meyarları nəzərə alınmaqla risk hallarının minimallaşdırılması məqsədilə müvafiq risk profilləri tətbiq edilmişdir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən daxil olmuş məlumatların təhlili aparılmış, həmçinin əqli mülkiyyət hüquqlarının qorunması və kontrafakt mallar üzərində nəzarətin daha da gücləndirilməsi məqsədilə zəruri hallarda risklərin idarəolunması sisteminə profillər əlavə edilmişdir.

Gömrük sərhəd buraxılış məntəqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, Dövlət Gömrük Komitəsinin sərəncamında olan resursların daha riskli sahələrə yönləndirilməsi, eləcə də gömrük orqanlarında beynəlxalq tələblərə cavab verən risklərin idarəolunması sisteminin yaradılması məqsədilə Ümumdünya Gömrük Təşkilatının “Risk Menecment Kompendiumu”nun sərhəd risklərinin idarəolunması üçün istifadə edilən əsas risk meyarları, sərhəd risklərinin idarəolunması üzrə qabaqcıl beynəlxalq təcrübə öyrənilərək idxal, ixrac və tranzit əməliyyatlarını həyata keçirən yük avtomobillərinin gömrük sərhəd buraxılış məntəqələrindən risk-əsaslı avtomatlaşdırılmış sistem vasitəsilə keçidinin təmin edilməsini özündə ehtiva edən sərhəd risklərinin idarəolunması sisteminin modulu layihəsi hazırlanmışdır. Bu sistem hər bir sərhədkeçmə əməliyyatı üzrə müəyyən olunmuş risk meyarlarına əsasən məlumatların emal edilməsini, onlara riyazi müəyyən olunmuş əhəmiyyətlilik dərəcəsi üzrə xüsusi çəki verməsini və nəticədə aparılmış qiymətləndirməyə görə əməliyyatın riskli olub-olmaması ehtimalının müəyyən edilməsini nəzərdə tutur.

Ümumdünya Gömrük Təşkilatı və Dövlət Gömrük Komitəsi arasında “Yük Hədəfləmə Sisteminin tətbiqi”nə dair bağlanmış müqavilə çərçivəsində risklərin idarə edilməsi üzrə ilkin qiymətləndirmə işləri aparılmış, eyni zamanda gömrük-sərhəd keçid məntəqələrində formalaşan məlumatların proqram təminatına uyğunlaşdırılması, həmin məlumatları emal edən virtual maşınların tətbiqinə başlanılması, müvafiq təlimlərin həyata keçirilməsi nəzərdə tutulmuş və bu istiqamətdə işlər davam etdirilir.

Gömrük bəyannamələrinin emalı prosesində qərar qəbuletmə mexanizminin mümkün dərəcədə avtomatlaşdırılması və bəyanetmə formasının təkmilləşdirilməsi üçün gömrük bəyannaməsinin 31-ci qrafasında malların eyniləşdirilməsi üçün tələb olunan əlavə məlumatların vahid sənəd forması işlənib hazırlanmışdır. Bu layihənin reallaşdırılması onun tətbiq edilməsi mümkün olan hər bir mal üzrə fərqləndirici xüsusiyyətlər strukturlaşdırılmış formada nəzərə alınmaqla avtomatik olaraq malların eyniləşdirilməsini mümkün edəcəkdir.

Hazırlanmış "Xarici Ticarət İştirakçılarının risk reytinqi Direktivi" layihəsi avtomatlaşdırılaraq tam istifadə edilməkdədir.

2020-ci il ərzində bütün yük nəqliyyat vasitələrinin trayektoriya üzrə hərəkətləri ilə bağlı (marşrutdan çıxma, dayanma, yubanma və s.) məlumatlar fasiləsiz olaraq araşdırılmış və təxirəsalınmaz tədbirlər görülmüşdür. Belə ki, təkcə marşrutdan çıxma ilə bağlı hesabat dövründə 1998 fakt qeydə alınmışdır. Həmin faktlara əsasən 72 nəqliyyat vasitəsinin marşrutdan çıxması üçün əsaslı səbəb olmadığına görə aktlaşdırılaraq qəbul edilmiş qərara uyğun olaraq onlar inzibati qaydada cərimə olunmuşlar. Qalan hallarda isə operativ müdaxilə nəticəsində həmin nəqliyyat vasitələri marşrut xəttinə qaytarılmışdır.

Hesabat dövründə GPS quraşdırılmış nəqliyyat vasitələrinin müxtəlif ərazilərdə dayanma durma səbəbləri araşdırılarkən 2030 nəqliyyat vasitəsinin nasazlıq səbəbindən dayandıqları aşkar olunmuş və nəqliyyat vasitələri nəzarətə götürülmüşdür. 182000-dən artıq GPS qurğusu nəqliyyat vasitələrinin üzərinə quraşdırılaraq müşahidə edilmişdir.

Hesabat dövründə 167 ədəd nəqliyyat vasitəsi fiziki müşayiətlə təyinat gömrük orqanına çatdırılmışdır.

2020-ci il ərzində Komitənin tabeliyində olan, ümumilikdə 4 gömrük orqanının və iş qrafikindən kənar 1 gömrük orqanının fəaliyyəti audit olunmuş və bu günədək Bakı Baş Gömrük İdarəsi, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi və Cənub Ərazi Baş Gömrük İdarəsi üzrə 7 513 220,51 manat gömrük ödənişlərinin ödənilməsi təmin edilmiş, ödənilməmiş gömrük borclarının ödənilməsi istiqamətində aidiyyəti tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının gömrük xidmətində Post-gömrük audit sisteminə dair Çərçivə sənədi və Daxili Auditin aparılması qaydalarının hazırlanması üzrə işlər aparılır.

## V. GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ VƏ TİCARƏTİN ASANLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş prioritet hədəflər çərçivəsində mallar və nəqliyyat vasitələri üzərində həyata keçirilən gömrük nəzarətinin səmərəliliyinin artırılması, sadələşdirilmiş gömrük nəzarəti metodlarının tətbiqi, ticarətin asanlaşdırılması, beynəlxalq miqyasda əməkdaşlığın gücləndirilməsi, tranzit potensialının inkişaf etdirilməsi, o cümlədən gömrük sisteminin beynəlxalq təcrübə nəzərə alınmaqla daha müasir model əsasında formalaşdırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir.

"Yaşıl Dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2019-cu ildən etibarən, ümumilikdə 843 xarici ticarət iştirakçısı olmaqla, yalnız idxal üzrə 501, yalnız ixrac üzrə 102, həm idxal, həm də ixrac üzrə isə 240 xarici ticarət iştirakçısı müraciət etmişdir. Daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 233 xarici ticarət iştirakçısına ixrac, 428 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, ümumilikdə

661 xarici ticarət iştirakçısına “Yaşıl Dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilmiş və bu barədə hər birinə bildiriş göndərilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2020-ci il tarixli göstərişinə əsasən, biznes mühitinin əlverişliliyinin daha da artırılması, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşdırılması məqsədilə “Xarici ticarətin aparılması” indikatoru üzrə icra olunmalı tədbirlərə dair 7 may 2020-ci il tarixdə keçirilmiş onlayn videokonfransın materiallarının nəzarətə götürülməsi və aidiyyəti üzrə icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli 427 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası”na müvafiq olaraq “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsinə dair müraciətlərin baxılması müddətini tənzimləyən Reqlament hazırlanmışdır.

Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük reyestrinin aparılmasına dair müraciətin elektron qaydada həyata keçirilməsi və bu müraciətin elektron hökumət portalı üzərindən elektron xidmət kimi xarici ticarət iştirakçılarına təqdim edilməsi mexanizmi, eləcə də pirat və ya kontrafakt malların buraxılışının dayandırılması zamanı reyestrdə olan mallara dair sənədlərin gömrük orqanları tərəfindən operativ yoxlanılması, həmçinin müraciətə baxılması vəziyyəti barədə vətəndaşların daha çevik məlumatlandırılması məqsədilə tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestrə daxil edilməsinə dair elektron müraciət forması işlənib hazırlanmışdır.

Dövlət Gömrük Komitəsi tərəfindən mərhələli qaydada keçirilmiş 14 imtahanda iştirak üçün dolayı gömrük təmsilçiliyi fəaliyyətini həyata keçirmək istəyən 230 hüquqi şəxs Dövlət Gömrük Komitəsi tərəfindən aparılan dövlət reyestrinə daxil edilmiş, həmin şirkətlərin, ümumilikdə 1172 nəfər əməkdaşı ixtisas attestatı əldə etmək üçün müvafiq sənədlərlə Dövlət Gömrük Komitəsinə müraciət etmiş, onlardan 445 nəfərin elektron xidmətlərdən istifadə hüququ aktivləşdirilmişdir.

Hazırda 185 şirkət Dövlət Gömrük Komitəsinin reyestrində qeydiyyatdan keçməklə dolayı gömrük təmsilçiliyi fəaliyyətini həyata keçirirlər.

“Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Sərhəddə ticarət işçi qrupunun 2020-ci il üçün Fəaliyyət Planı”nın 1.3-cü bəndinə uyğun olaraq hazırlanmış “Azərbaycan Respublikasının Ticarətin Asanlaşdırılması üzrə Milli Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi, “Azərbaycan Respublikasının Ticarətin Asanlaşdırılması üzrə Milli Komitəsi haqqında Əsasnamə” layihəsi müvafiq məktublarla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə təqdim edilmişdir. Hal-hazırda müvafiq dövlət qurumlarının rəyləri nəzərə alınmaqla Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə birgə “Azərbaycan Respublikasının Ticarətin Asanlaşdırılması üzrə Milli Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsinin hazırlanması istiqamətində işlər davam etdirilir.

“Azərbaycan Respublikasının Ticarətin Asanlaşdırılması üzrə Milli Komitəsinin yaradılması”na dair təklif Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il üçün iş planına daxil edilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin 29 sentyabr 2020-ci il tarixli 1000-100/001-21/018834 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. “Ticarətin Asanlaşdırılması üzrə Milli Komitə”nin təsis edilməsi

malların idxalı, ixracı və tranzit daşınması zamanı ticarət prosedurlarının asanlaşdırılması məsələlərinin koordinasiyası işinin təşkilinə və təkmilləşdirilməsinə, milli “Bir pəncərə” prinsipinin səmərəli idarə edilməsinə, gömrük-sərhəd prosedurlarının və sənədləşmənin unifikasiyasına, yuxarıda əks olunan məsələlər üzrə qurumlararası inteqrasiya prosesinin və əməkdaşlığın inkişafına, dövlət və özəl sektor arasında müntəzəm dialoqun təşkilinə, vaxt və xərclərə qənaət edilməsinə, yarana biləcək problemlərin optimal həllinə, o cümlədən ölkənin qlobal ticarətdə reytinqinin (Doing Business, Qlobal Rəqabətlilik və s.) daha da yüksəldilməsinə xidmət edəcəkdir.

“Malın təsnifatı və mənşə ölkəsinə dair məcburi qərarların tətbiqi ilə bağlı Təlimat sənədi”, “Müraciət formaları” və “Məcburi qərarın qəbul edilməsinə dair elektron müraciət formasının təqdim edilməsi qaydaları” hazırlanaraq elektron xidmət olaraq Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsinin “Sahibkarlar” bölməsində yaradılmış “Məcburi qərarlar” alt bölməsinə yerləşdirilmişdir. Habelə, “Məcburi qərar”ın qəbul edilməsi məqsədilə xarici ticarət iştirakçıları tərəfindən edilmiş müraciətlərə baxılması və qeydiyyatı, Komitənin aidiyyəti struktur bölmələri tərəfindən müraciətlərlə bağlı rəylərin bildirilməsi, məcburi qərarın qəbulu və yaxud imtinası barədə müvafiq qərar qəbul edilməsi üzrə elektron sistem hazırlanaraq Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində və VAİS sisteminin “Rəsmiləşdirmə” bölməsində yerləşdirilmişdir. Hal-hazırda layihə pilot qaydada tətbiq edilir. “Məcburi qərar” layihəsi üzrə ötən il ərzində 3 hüquqi şəxsin müraciəti əsasında malın təsnifat koduna dair 31 məcburi qərar qəbul edilmişdir.

Müasir texnologiyaların tətbiqi ilə hədəfləmə sistemlərinin inkişaf etdirilməsi, əməkdaşların potensialının artırılması, səmərəli risk idarəetmə sisteminin formalaşdırılması, o cümlədən “Sərnişinlərə dair ilkin məlumat” (APİ) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemlərinin tətbiqi istiqamətində müvafiq işlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2019-cu il tarixli 19/16/4453-09/18/17 nömrəli tapşırığının icrası çərçivəsində “Sərnişinlərə dair ilkin məlumat” (APİ) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemləri üzrə Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə işçi qrupu formalaşdırılmış, bu çərçivədə Birləşmiş Millətlər Təşkilatı ilə birgə “Azərbaycan Respublikasında “Sərnişinlərə dair ilkin məlumat” (APİ) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemlərinin tətbiqi üzrə Yol Xəritəsi” sənədi hazırlanmış və sənəd artıq Birləşmiş Millətlər Təşkilatı tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi vasitəsilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. Sözügedən Yol Xəritəsi sənədi özündə qanunvericiliyin təkmilləşdirilməsi, “GoTravel” risk idarəetmə sisteminin qurulması, “Sərnişin Məlumat Mərkəzi”nin yaradılması, aviadaşıyıcılarla inteqrasiyanın təmin edilməsi kimi məsələləri ehtiva edir.

“Sərnişinlərə dair ilkin məlumat” (APİ) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemlərinin Azərbaycanda tətbiqi üzrə işlərin davam etdirilməsi məqsədilə ötən ilin 23 oktyabr və 6 noyabr tarixlərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2019-cu il tarixli 19/16/4453-09/18/17 nömrəli tapşırığı ilə yaradılmış “Sərnişinlərə dair ilkin məlumat” (APİ) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemləri üzrə işçi qrupunun görüşləri keçirilmişdir.

İclasların nəticəsi olaraq, Yol Xəritəsinin müddəalarında öz əksini tapan 4 alt işçi qrupun (Qanunvericilik, Sərnişin Məlumat Mərkəzi (PİU), Aviadaşıyıcılarla Əlaqə, Texniki Tətbiqetmə) yaradılması və onların üzvlərinin müəyyən olunması ilə bağlı qərar qəbul

edilmişdir. Hal-hazırda sözügedən alt işçi qruplarında iştirak edəcək üzvlərə dair məlumatlar toplanılmaqdadır.

Gömrük ərazisinə daxil olması nəzərdə tutulan mallar barədə məlumatların əvvəlcədən müəyyən edilmiş müddət ərzində alınmasına dair təkliflər Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən hazırlanmış "Aviasiya haqqında" Qanun layihəsində nəzərə alınmışdır. Hal-hazırda layihə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiqlənmə mərhələsindədir.

2020-ci ilin 30 aprel tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi və "Caspian European Club"un üzvü olan şirkətlərin nümayəndələri arasında onlayn rejimdə görüş keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, baş idarə rəisləri, "Caspian European Club"un sədri və baş icraçı direktoru və klubun üzvü olan şirkətlərin nümayəndələri iştirak etmişlər. Virtual müzakirə zamanı sahibkarlara qısaca olaraq koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində görülən işlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, gömrük sərhədini keçən nəqliyyat vasitələri bir neçə mərhələdə dezinfeksiya olunduqdan sonra ölkə ərazisinə buraxılır. Bu məqsədlə gömrük-keçid məntəqələri bütün zəruri avadanlıqlarla təchiz edilib. Eyni zamanda, beynəlxalq ticarətin davamlılığının təmin edilməsi, mal və nəqliyyat vasitələrinin sərhəddən maneəsiz və sürətli keçidinin təmin olunması məqsədilə qonşu ölkələrin gömrük orqanları ilə də mütəmadi danışıqlar aparılır, məlumat mübadiləsi həyata keçirilir. Görüşün sonunda "Caspian European Club"un üzvü olan şirkətlərin nümayəndələri tərəfindən ünvanlanan suallar cavablandırılmış, bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2020-ci ilin 8 may tarixində "Caspian European Club"un təşkilatçılığı ilə növbəti onlayn qaydada beynəlxalq biznes forum keçirilmişdir. Forumda Dövlət Gömrük Komitəsi sədrinin müavini, Gürcüstan Gömrük Xidməti rəhbərinin birinci müavini, Azərbaycan, Qazaxıstan və Gürcüstanın diplomatik nümayəndəliklərinin rəhbərləri və əməkdaşları, bu ölkələrdə fəaliyyət göstərən logistika şirkətlərinin, nəqliyyat qurumlarının və sahibkarlıq subyektlərinin nümayəndələri iştirak etmişdir. Forumda bildirilmişdir ki, koronavirus (COVİD-19) infeksiyasının yayılmasına qarşı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş, qabaqlayıcı tədbirlər ilk növbədə insanların sağlamlığının qorunmasına, iqtisadiyyata dəyən zərərin minimuma endirilməsinə yönəlmişdir. İnfeksiyanın yayılmasına qarşı mübarizə tədbirləri çərçivəsində gömrük orqanlarının cari ilin yanvar ayından etibarən gücləndirilmiş iş rejimində fəaliyyət göstərdiyi, sərhədkeçmə proseslərinin sürətli və maneəsiz şəkildə reallaşdırılması, qeydiyyat və nəzarət tədbirlərinin asanlaşdırılması istiqamətində mühüm addımlar atıldığı diqqətə çatdırılmışdır. Sonda, üç ölkə arasında tranzit daşımaların asan və sürətli şəkildə həyata keçirilməsi, ticarət-təchizat zəncirinin davamlılığının təmin olunması istiqamətində müzakirələr aparılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2020-ci il tarixli 6121 nömrəli göstərişinə əsasən biznes mühitinin əlverişliliyinin daha da artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşdırılması məqsədilə "Xarici ticarətin aparılması" indikatoru üzrə icra olunmalı tədbirlərə dair Komitənin aidiyyəti struktur bölmələri arasında 8 may 2020-ci il tarixində video-konfrans formatında iclas keçirilmişdir. iclas zamanı koronavirusla əlaqədar ölkəmizin bütün sərhədlərində sərnişinlərin və yüngül minik nəqliyyat vasitələrinin hərəkətinə müvəqqəti məhdudiyyət qoyulması, eləcə də idxal-ixrac əməliyyatlarının və tranzit yükdaşımalarının maneəsiz həyata keçirilməsi barədə

məlumat verilmişdir. Həmçinin, gömrük təmsilçiliyi institutunun formalaşdırılması, gömrük təmsilçilərinin peşə biliklərinin artırılması istiqamətlərində görülən işlər barədə də müzakirələr aparılmış, "Xarici ticarətin aparılması" indikatoru üzrə icra olunmalı ən önəmli tədbirlərdən biri olan broker xidmətləri xərclərinin optimallaşdırılması məsələləri müzakirə olunmuş və Komitənin aidiyyəti qurumlarına gömrük təmsilçiliyi fəaliyyətini həyata keçirən şirkətlərlə bu istiqamətdə işlərin aparılmasına dair tapşırıqlar verilmişdir.

15 may 2020-ci il tarixdə Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Sərhəddə ticarət" indikatoru üzrə işçi qrupunun onlayn iclası keçirilmiş, iclasda işçi qrupun 2020-ci ilin birinci rübündəki fəaliyyət planına uyğun olaraq görülən işlər, koronavirus pandemiyasının iqtisadiyyata və xarici iqtisadi fəaliyyətə göstərə biləcəyi təsirlərin qarşısının alınması ilə bağlı həyata keçiriləcək qabaqlayıcı tədbirlər, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 165 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı" qaydaları müzakirə edilmişdir.

Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamları ilə BYD kitabçasından istifadə edilməklə beynəlxalq yük daşımalarında iştirak etmək üçün ötən ildə 7 daşıyıcıya icazə verilmişdir. Həmçinin, 1 fiziki şəxsə verilmiş icazə geri alınmış, 2 fiziki şəxsin Azərbaycan Respublikası ərazisindən beynəlxalq yük daşımalarında iştirak etmək hüququ məhdudlaşdırılmışdır.

Ələt Azad İqtisadi Zonasının "Baş Plan"ı və "Ərazinin infrastuktur təminatı"na dair sənəd layihələrinə dair Dövlət Gömrük Komitəsinin təklifləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmişdir. Azad İqtisadi Zonanın ərazisində gömrük işinin təşkili ilə əlaqədar inşası nəzərdə tutulan Səlahiyyətli Qurumun inzibati binasında yaradılacaq ofis sahəsində ilkin mərhələdə xidmət aparacaq gömrük əməkdaşlarının sayı barədə məlumatlar Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumuna təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nın 7.2.1.1-ci bəndində Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin (NCTS) tətbiq olunmasının tezləşdirilməsi üçün milli qanunvericiliyin uyğunlaşdırılması, tranzit zəmanət sisteminin yaradılması istiqamətində tədbirlərin görülməsi tapşırılmış və Dövlət Gömrük Komitəsi bəndin icrasına cavabdeh dövlət orqanlarından biri olaraq müəyyən olunmuşdur.

Bununla əlaqədar, "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" adlı tvinninq layihəsi rəsmi olaraq 1 iyun 2020-ci il tarixdə fəaliyyətə başlamışdır. Layihənin müddəti 15 ay, büdcəsi 1 milyon avro təşkil edir. Üzv dövlətin Tvinninq layihəsini həyata keçirən tərəfdaşı maliyyə və inzibati məsələlərdə Studiare Sviluppo tərəfindən dəstəklənən İtaliya Gömrük və İnhisar Agentliyidir.

15 dekabr tarixdə Rəhbər Komitənin ikinci iclası keçirilmiş və növbəti iş planı təsdiq olunmuşdur. Yeni növ koronavirus (COVİD 19) pandemiyası ilə əlaqədar olaraq layihənin iclasları 7 sentyabr tarixdən etibarən distant şəkildə başlamış və hal-hazırda davam etdirilir.

İndiyədək layihənin fəaliyyətlərini həyata keçirmək üçün 3 komponent üzrə (qanunvericilik, İT, prosedur ilə əlaqəli və təşkilati) 20 İtalyan mütəxəssis təyin edilmiş, Benefisiar tərəfdən isə 20 mütəxəssis iştirak etmişdir.

8 sentyabr tarixdə Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində keçirilmiş Gömrük Əməkdaşlıq Komitəsinin 19-cu iclasında 2017-ci ilin sentyabr ayında Qazaxıstanın Almatı şəhərində keçirilən "MARİƏ-nin təkmilləşdirilmiş tranzit sisteminin və məlumatların ümumi mübadiləsinin pilot yoxlanılmasının həyata keçirilməsi"nə dair seminarda Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında iştirakçı ölkələr tərəfindən hazırlanan "MARİƏ-nin təkmilləşdirilmiş tranzit sisteminin və məlumatların ümumi mübadiləsinin pilot yoxlanılmasına dair üçtərəfli Saziş" layihəsi ilə bağlı müzakirələr aparılmışdır.

Görüş çərçivəsində sözügedən sənədin tranzit əməliyyatları üzrə gömrük zəmanət zəncirinin təşkili, vahid inzibati sənədin tətbiqi yolu ilə tranzit daşımaları zamanı gömrük məqsədləri üçün tələb olunan sənədlərin sayının minimuma endirilməsi, bütün tranzit marşrutu üzrə məlumatların əvvəlcədən elektron qaydada mübadiləsi vasitəsilə risklərin təhlili və qiymətləndirilməsinin sürətləndirilməsi, mal və nəqliyyat vasitələrinin gömrük sərhəd buraxılış məntəqələrində dayanmalara məruz qalmadan birbaşa təyinat yerlərinə çatdırılması məqsədlərini özündə ehtiva etdiyi bildirilmiş və ölkələrin milli səviyyədə təsdiqindən sonra layihənin pilot tətbiqinə başlanılmasına dair razılıq əldə olunmuşdur.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məktubu ilə daxil olmuş Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ərazisində Azad İqtisadi Zonanın yaradılması və "TRASEKA proqramının canlandırılması üzrə Tədbirlər Planı"na dair Komitənin rəy və təklifləri İqtisadiyyat Nazirliyinə təqdim olunmuş, gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan nəqliyyat sənədlərinin elektron sənəd formasında təqdim edilməsi mümkün olduğu təqdirdə, onların gömrük orqanlarının Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) inteqrasiyası və gömrük nəzarəti zamanı yalnız elektron sənəd formasından istifadənin təmin edilməsinin mümkünlüyü bildirilmişdir. Bununla yanaşı, İATA-nın (Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası) "e-freight" sisteminin Azərbaycan Respublikasının hava limanlarında tətbiqi və gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə inteqrasiya edilməsi məsələsinin "Azərbaycan Hava Yolları" QSC ilə işçi qaydada müzakirə edilməsini və tədbirin icra müddətinin "2020-2021" kimi müəyyən olunması təklif olunmuşdur.

"Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Bununla bağlı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ötürülməsi nəzərdə tutulan məlumatların elektron formada əldə edilməsinin gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sisteminin imkanları çərçivəsində mümkünlüyünü nəzərə alaraq, sözügedən məsələnin aidiyyəti dövlət orqanları, o cümlədən İqtisadiyyat Nazirliyi tərəfindən tətbiqinin tezləşdirilməsinin təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına məktub ünvanlanmışdır.

Bunanla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sözügedən qərarında göstərilən lisenziyalar və icazələr barədə müvafiq məlumatların elektron qaydada

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ötürülməsi istiqamətində İqtisadiyyat Nazirliyi ilə birgə tədbirlər davam etdirilir.

Gömrük orqanlarına təqdim olunmuş sənədlərin yoxlanılması işinin keyfiyyətinin daha da artırılmasını, həmin sənədlərin yoxlanılmasına sərf olunan vaxtın minimuma endirilməsi, xarici ticarət iştirakçılarının məmunluğunu təmin etmək məqsədilə Gömrük bəyannaməsinin və onunla birgə təqdim olunan sənədlərin yoxlanılması işinin təkmilləşdirilməsi barədə layihə hazırlanmışdır.

Bərdə şəhər Dəmiryol Stansiyasının ərazisində gömrük nəzarəti zonasının yaradılması haqqında layihə hazırlanmışdır.

Dövlət Gömrük Komitəsi ilə "Smiths Detection GmbH" şirkəti arasında bağlanmış 01 iyul 2019-cu il tarixli, 0192-01 nömrəli müqaviləyə əsasən əldə olunmuş avadanlıqlardan 1 ədəd "CIP 300" (minik nəqliyyat vasitələrinin yoxlanılması üçün) markalı rentgen qurğusunun, 1 ədəd "HS 7555ax" (əl yüklərinin yoxlanılması üçün) markalı rentgen qurğusunun və 1 ədəd "HCVM T" (mobil tipli rentgen yük yoxlama baxış sistemi) mobil tipli rentgen qurğusunun "Samur" gömrük postunda, 1 ədəd "CIP 300" (minik nəqliyyat vasitələrinin yoxlanılması üçün) markalı rentgen qurğusunun isə "Qırmızı Körpü" gömrük postunda quraşdırılması işləri başa çatdırılmış və istismara verilmişdir. Həmçinin, sözügedən müqaviləyə əsasən əldə olunmuş 2 ədəd "CIP 300" (minik nəqliyyat vasitələrinin yoxlanılması üçün) markalı rentgen qurğusunun, 1 ədəd "HS 7555si", 1 ədəd "HS 6046si" və 1 ədəd "HS 6040 2is" (əl yüklərinin yoxlanılması üçün) markalı rentgen qurğularının Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin balansına keçirilməsi və quraşdırılaraq istismara verilməsi başa çatdırılmışdır. Eyni zamanda "HCVG 6040" (yük nəqliyyat vasitələrinin yoxlanılması üçün) markalı yoxlama baxış sisteminin tikiniti işləri başa çatdıqdan sonra "Xanoba" gömrük postunda quraşdırılması və istismara verilməsi planlaşdırılır.

Gömrük nəzarətinin səmərəliliyinin artırılması, mallar və nəqliyyat vasitələri üzərində sürətli qeyri-intruziv gömrük yoxlamasının təşkili məqsədilə Komitə rəhbərliyi ilə "Smiths Detection GmbH" şirkəti arasında bağlanmış 02 sentyabr 2020-ci il tarixli, 0209-20 nömrəli müqaviləyə əsasən 1 ədəd "CIP 300" (minik nəqliyyat vasitələrinin yoxlanılması üçün) markalı rentgen avadanlığının istehsalına başlanılmış, bununla yanaşı 4 ədəd "HS100100 T-2is" markalı (əl yüklərinin yoxlanılması üçün) baxış-rentgen qurğularının Azərbaycan Respublikasına göndərilməsi təmin edilmişdir.

Dövlət Gömrük Komitəsi ilə "Mega Fortris Europe" şirkəti arasında bağlanmış 17 avqust 2020-ci il tarixli müqaviləyə əsasən gömrük təminatı vasitəsi olan 100000 ədəd "MCL" tipli (1.8 mm - 18 sm (troslu kilid)) plomb, 10000 ədəd "KLC" tipli (boltlu kilid) plomb, 50000 ədəd stiker (20 mm - 50 mm) əldə olunmuş və gömrük orqanları arasında paylanılması həyata keçirilmişdir.

ABŞ-ın Müdafiə Nazirliyi xətti ilə "Gömrük sərhəd buraxılış məntəqələrində narkotik maddələrin aşkar edilməsi" layihəsi çərçivəsində Dövlət Gömrük Komitəsinin Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara və Biləsuvar gömrük postlarına 2 ədəd "CIP 300" (minik nəqliyyat vasitələrinin yoxlanılması üçün), 2 ədəd "Hi Scan 180 180-2IS Pro" (iri həcmli və paletlərdə qablaşdırılmış yüklərin yoxlanılması üçün), 4 ədəd "B-Scan 16 HR-DV" (insanların üzərində və daxili orqanlarında gizlətdikləri qeyri-qanuni predmetlərin aşkar edilməsi üçün) rentgen avadanlıqları, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin Beynəlxalq Dəniz Ticarət Limanı gömrük postuna 1 ədəd "HCVM-T" (mobil tipli rentgen yük

yoxlama baxış sistemi) rentgen qurğusu quraşdırılmışdır. Eyni zamanda, sözügedən texniki yardım çərçivəsində 2 ədəd teleskopik yükləyici əldə olunaraq müvafiq qaydada balansa götürülmüşdür.

Bununla yanaşı, ABŞ-ın Müdafiə Nazirliyi xətti ilə "Astara dəmir-yolu gömrük postu"na 1 ədəd "HCVT" (dəmir yolu qatarlarının yoxlanılması üçün) stasionar rentgen qurğusunun quraşdırılması işi həyata keçirilmiş və həmin layihə çərçivəsində Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə 2 ədəd sürətli qayıqların (Xəzər dənizində patrul xidmətinin həyata keçirilməsi üçün) verilməsi növbəti ilin 3-cü rübü üçün nəzərdə tutulmuşdur.

## VI. GÖMRÜK İŞİ SAHƏSİNDƏ HÜQUQPOZMALARA QARŞI MÜBARİZƏ İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

2020-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 18913 hüquqpozma faktı aşkar edilmişdir.

Bu faktlardan 509-u cinayət xarakterli olmuş, həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 693,87 milyon manatdan çox təşkil etmişdir. Bu əməllərin törədilməsində şübhəli bilinən 517 nəfərin (412 Azərbaycan vətəndaşı, 105 əcnəbi) barəsində müvafiq tədbirlər görülmüşdür.

Cinayət faktlarından 117-si Cənub Ərazi Baş Gömrük İdarəsi, 108-i Şimal Ərazi Baş Gömrük İdarəsi, 101-i Qərb Ərazi Baş Gömrük İdarəsi, 91-i Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, 38-i  Sumqayıt Baş Gömrük İdarəsi, 30-u Bakı Baş Gömrük İdarəsi, 11-i Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi, 7-si Əməliyyat-İstintaq Baş İdarəsi, 5-i Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi, 1-i Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən aşkar olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək və gömrük sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində 2020-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 111 fakt aşkar olunmuş, ümumilikdə 1 ton 490 kq 495 qramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülmüşdür. Onların 96%-ni daha təhlükəli narkotik vasitə olan 1 ton 430 kq 538 qram heroin, 36 kq 702 qramdan çox tiryək, 5 kq 909 qram həşiş, 1 kq 169 qramdan çox marixuana, 1 kq 365 qramdan çox kokain, 15,5 qram metadon, 6 kq 354 qramdan çox metamfetamin,1 kq 187 qram MDMA (ekstazi), 9 ədəd klonazepam, 4 kq 600 qram sulfat turşusu, 2 kq 556 qram xlorid turşusu və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2020-ci il  ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 108 nəfər: 94 kişi və 14 qadın olmaqla 79 nəfər Azərbaycan vətəndaşı, 29 nəfər əcnəbi (17 İran, 5 Rusiya, 4 Gürcüstan, 1 Ukrayna, 1 Pakistan və 1 Türkiyə vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, 12 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları 62 halda İrandan, 6 halda Rusiyadan, 6 halda Gürcüstandan, 5 halda Türkiyədən, 1 halda Almaniyadan Azərbaycana gətirilərkən, 1 halda Amerika Birləşmiş Ştatlarına, 3 halda Rusiyaya, 1 halda Çexiyaya aparılarkən, 26 halda isə tranzit yolla (11 halda İran-Azərbaycan-Rusiya, 5 halda İran-Azərbaycan-Ukrayna, 2 halda İran-Azərbaycan-Gürcüstan, 2 halda İran-Azərbaycan-Polşa, 2 halda İran-Azərbaycan-Qazaxıstan, 1 halda İran-Azərbaycan-Türkiyə, 1 halda İran-Azərbaycan-Avstriya, 1 halda Yaponiya-Azərbaycan-Türkmənistan, 1 halda Qazaxıstan - Azərbaycan-Hindistan) keçirilərkən saxlanılmışdır.

Narkotiklərin qanunsuz keçirilməsi məqsədilə narkoqaçaqmalçılar müxtəlif gizlətmə üsullarından istifadə etmişlər. 2020-ci il ərzində 14 halda narkotik vasitələrin daxili bədən boşluqlarında (mədədə, düz bağırsaqda, cinsiyyət orqanında və s.) keçirilməsi cəhdinin qarşısı alınmışdır.

Gömrük orqanlarının əməkdaşları tərəfindən 15 fakt üzrə, ümumilikdə 7 kq 24 qram güclü təsiredici maddələr, o cümlədən 6222,3 preqabalin, 582 qram boldenon, 86,5 qram testosterone, 35 qram stanozolol, 30 qram methenolone, 22,5 qram oksimetolon, 21 qram matandienon, 14 qram drostanolon və s. qanunsuz dövriyyədən çıxarılmışdır.

İstintaq orqanının barələrində axtarış elan etdiyi 30 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların yeri müəyyən edilmiş və istintaq orqanının sərəncamına verilmişdir. Həmçinin, əməliyyat tapşırıqlarının icrası ilə əlaqədar barələrində məcburi gətirilmə tətbiq olunan və istintaq orqanının çağırışına məhəl qoymayan 21 nəfərin gətirilməsi təmin edilmişdir.

2020-ci ildə icraatda 2019-cu ildən qalmış 10, hesabat dövründə daxil olmuş 193 olmaqla, cəmi 203 material araşdırılmışdır.

Hesabat dövründə icraatda olan materiallar üzrə 160 cinayət işi başlanılmış, 17 material üzrə cinayət işinin başlanılması rədd edilmiş, 17 material aidiyyəti üzrə təhqiqat orqanına, 4 material digər orqanlara göndərilmiş, 1 material cinayət işinə əlavə edilmişdir.

İcraatda olmuş 396 cinayət işinin 160-ı hesabat dövründə başlanılmış, 98-i ötən ildən qalmış, 64-nün icraatı təzələnmiş, 48-i başqa cinayət işlərindən ayrılmış, 6-sı prokuror, 2-si məhkəmə tərəfindən əlavə istintaqa qaytarılmış və 18-i digər orqanlardan daxil olmuşdur.

2020-ci il ərzində başlanılmış cinayət işlərinin 39,4 faizi (63 cinayət işi) ağır, 59,4 faizi (95 cinayət işi) az ağır, 1,2 faizi (2 cinayət işi) isə böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olmuşdur.

İcraatda olmuş 396 cinayət işindən 153 cinayət işi (5 iş təkrarla) baxılması üçün ittiham aktları ilə məhkəmələrə göndərilmiş, 121 cinayət işinin icraatı dayandırılmış, 64 cinayət işinin icraatına xitam verilmiş, 14 cinayət işi istintaq aidiyyəti üzrə digər orqanlara göndərilmiş, 9 cinayət işi icraatda olan digər cinayət işlərinə birləşdirilmiş, 35 cinayət işi hesabat dövrünün sonuna icraatda qalmışdır.

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli, 68-VIQD nömrəli Qanununa əsasən cinayət qanunverciliyində aparılmış dekriminallaşdırma ilə əlaqədar Azərbaycan Respublikası CM-nin 206-cı maddəsi ilə istintaqı aparılan 5, icraatı müxtəlif əsaslarla əvvəlki dövrlərdə dayandırılmış 42, cəmi 47 cinayət işi üzrə icraata əməlin cinayət olması aradan qalxdığı üçün xitam verilmiş və əvvəlki illərdən axtarışda olan 12 nəfər təqsirləndirilən şəxsin barəsində axtarış işi ləğv edilmişdir.

İstintaqı tamamlanmış cinayət işləri üzrə 176 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən 97 nəfəri barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, qalan 79 nəfəri barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

Dövlət mülkiyyətinə vurulmuş cəmi 249 472,0 manat məbləğində ziyanın 229 179,0 manatı, yəni 91,8%-nin borclu şəxslər tərəfindən ödənilməsi təmin edilmiş, qalan 20 292,0 manatının ödənilməsi istiqamətində işlər davam etdirilmişdir.

İcraatda olan cinayət işləri üzrə 119 şəxs Azərbaycan Respublikası CPM-nin 148-ci maddəsinə əsasən tutulmuş, onlardan 96-sı barəsində məhkəmə tərəfindən həbs, 4-ü barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş və ya əvəz edilmiş, 7-si şübhə təsdiq edilmədiyinə görə, 12-si isə barələrində həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçildiyi üçün istintaq orqanı tərəfindən azad edilmişdir.

Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 18404 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 2360 hüquqi şəxs (o cümlədən 861 xarici hüquqi şəxs) və 16064 fiziki şəxs (o cümlədən 11301 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 2 066 521,0 manat cərimə tətbiq olunmaqla, dəyəri 338 042,0 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilmişdir.

«Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının Qanuna və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 340 800,0 ABŞ dolları, 2 007 491,0 rus rublu, 110 326,0 manat dəyərində 287 ədəd qızıl zinət əşyaları, 12 848,0 manat dəyərində 531 ədəd gümüş zinət əşyaları, 3418 manat dəyərində 62,18 qram qızıl muncuqlar və s. aşkar olunmuşdur.

Gömrük orqanları tərəfindən 34 310,0 manat dəyərində 34310 ədəd CİTES obyekti olan tibb zəlisi, 449 329,0 manat dəyərində dərman vasitələri, 2767 manat dəyərində baytarlıq dərmanları, 6716 ədəd kosmetika, 1 124 143,0 manat dəyərində 668 ədəd mobil telefon və 11 377,0 manat dəyərində 687 ədəd mobil telefonların aksesuarları, 321 086 ,0 manat dəyərində məişət texnikası və əşyaları, 212 103,0 manat dəyərində elektronika məhsulları, 2 ədəd odlu silah, 11 ədəd odlu silahın patronları, 270125 ədəd pirotexniki məmulatlar, 3 ədəd pnevmatik silah, 500 ədəd pnevmatik silahın patronları, 90 ədəd soyuq silah, 102 ədəd səs-siqnal silahının patronları, 143 306,0 manat dəyərində tibb ləvazimatları, 263 337,0 manat dəyərində geyim əşyaları və xeyli miqdarda digər mallar tutulmuşdur.

Azərbaycan Respublikasının və xarici ölkələrin bədii, tarixi və arxeoloji sərvətlərin qorunması sahəsində tarixi əhəmiyyət kəsb edən və Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət siyahısına daxil edilmiş mədəni sərvət hesab olunan 1 ədəd xəncər hüquqpozmanın predmeti kimi saxlanılmışdır.

Gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş qətiyyətli tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 4 925 826,0 manat dəyərində 51 701 539,0 ədəd xaricdə istehsal olunan siqaretlər, 10 889,0 manat dəyərində 481 litrdən çox spirtli içkilər saxlanılmışdır.

2020-ci ildə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının (ÜGT) birgə layihəsi olan Konteyner Daşımalarına

Nəzarət üzrə Qlobal Proqram (KDNQP) çərçivəsində “Containercomm” (Konteynerkom) qorunan məlumat ötürmə kanalı üzərindən Tacikistan, Gürcüstan, Əfqanıstan, Türkmənistan və bir sıra başqa ölkələrin gömrük xidmətləri ilə qabaqlayıcı, istiqamətləndirici və malların daşınması üzrə ilkin məlumatların mübadiləsi həyata keçirilmişdir. Eyni zamanda Türkiyə Respublikasının Ticarət Nazirliyi ilə əməkdaşlıq nəticəsində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən verilmiş qabaqlayıcı məlumatlar əsasında Türkiyədə 185,2 karat brilyant daşların qaçaqmalçılığı aşkar edilərək təqsirkar şəxslər məsuliyyətə cəlb edilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Amerika Birləşmiş Ştatlarının Ədliyyə Nazirliyinin Narkotiklərlə Mübarizə Administrasiyası və digər ölkələrin müvafiq səlahiyyətli orqanları ilə də səmərəli əməkdaşlıq edərək müvafiq məlumat və təcrübə mübadiləsi aparmışdır.

Ümumdünya Gömrük Təşkilatının MDB ölkələri üzrə RİLO-Moskva regional əlaqələndirmə qovşağı çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən milli əlaqələndirmə qovşağı tərəfindən 2020-ci il ərzində 33 hüquqpozma faktı, o cümlədən “ŞOT” layihəsi çərçivəsində alkoqollu məhsulların qanunsuz dövriyyəsinə dair 10 hüquqpozma faktına dair məlumatlar Ümumdünya Gömrük Təşkilatının gömrük hüquq mühafizə şəbəkəsi olan “CEN”-ə daxil edilmiş, müvafiq məlumatlar MDB-yə daxil olan ölkələrlə beynəlxalq qorunan məlumat mübadiləsi kanalı (RILO CIS Operational Platform) vasitəsilə qarşılıqlı şəkildə mübadilə edilmişdir. “Qlobal Qalxan” (Global Shield) və “Narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının qanunsuz dövriyyəsinin aşkar edilməsi faktları üzrə məlumat mübadiləsi sistemi” (PICS) sistemləri ilə də iş aparılaraq müvafiq məlumatların mübadiləsi təmin edilmişdir.

2020-ci il ərzində Dövlət Gömrük Komitəsi “Çasavoy-2020”, “Filtr”, “Filtr 2”, “Demetra 6”, “Qamma”, “Amfetamin” qrupu psixotrop maddələrinin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə qlobal birgə hüquq mühafizə əməliyyatı”, “AVRO 2020”, “Internet Trade”, “GOALS” və “Pangea XIII” kimi beynəlxalq əməliyyatlarda iştirak etmiş və müvafiq məlumat mübadiləsi aparmışdır.

## VII. TEXNOLOJİ VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ GÖRÜLƏN TƏDBİRLƏR

Komitənin internet saytında təkmilləşdirmələr aparılmış, yeni bölmələr əlavə edilmiş, Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikasına dair məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə “Ticarət statistikası” portalının beta versiyası hazırlanmışdır.

İnternet üzərindən elektron ticarət yolu ilə idxal olunan malların rəsmiləşdirilməsi və nəzarətin həyata keçirilməsi məqsədilə “Sadələşdirilmiş bəyannamə - elektron ticarət” elektron gömrük xidməti istifadəyə verilmişdir.

Gömrük-Biznes əməkdaşlığının (C2B) daha da inkişaf etdirilməsi, biznes subyektlərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, məmur-vətəndaş təmasının aradan qaldırılması və şəffaflığın təmin edilməsi məqsədilə yeni www.e.customs.gov.az portalı hazırlanmışdır. Elektron gömrük xidmətlərinin həmin portal üzərindən göstərilməsi nəzərdə tutulur. Hazırda yeni hazırlanmış “Sadələşdirilmiş bəyannamə - elektron ticarət” xidmətinin bu portal üzərindən tətbiqinə başlanılmışdır. Portalda xarici iqtisadi fəaliyyət iştirakçıları üçün gömrük rəsmiləşdirilməsi üçün lazım olan sənədlərin elektron qaydada gömrük orqanlarına göndərilməsi üçün “Sənədlərin qeydiyyatı” bölməsi yaradılmışdır.

Beynəlxalq ticarət zənciri üzrə malların vaxt və xərc itkisinə məruz qalmadan maneəsiz və sürətli hərəkətinin, o cümlədən xarici ticarət iştirakçılarına öncədən biznes proqnozlaşdırılmasının təmin olunması məqsədilə "Məcburi qərarlar" elektron gömrük xidməti hazırlanmış və istifadəyə verilmişdir.

"Smart Customs" mobil tətbiqinin yeni versiyası istifadəyə verilmiş, ilkin olaraq "Sadələşdirilmiş bəyannamə - elektron ticarət", "Elektron növbə", "Sürətli keçid" və "Yüngül minik nəqliyyat vasitələrinin idxalı ilə bağlı gömrük ödənişlərinin hesablanması" gömrük xidmətləri bu tətbiqə inteqrasiya edilmişdir.

"Sadələşdirilmiş bəyannamə - elektron ticarət" elektron gömrük xidmətinin Anroid və İOS əməliyyat sistemləri istifadəçiləri üçün hazırlanıb təqdim edilmiş "Smart Customs" mobil tətbiqi üzərindən istifadəsi təmin edilmişdir. Tətbiqin 29 mindən çox Android, 3700-dən çox isə İOS istifadəçisi mövcuddur.

Xarici vətəndaşların elektron gömrük xidmətlərindən istifadə edə bilməsini təmin etmək üçün www.e.customs.gov.az portalında qeydiyyatdan keçmə və istifadə üzrə modulu hazırlanmış və tətbiq edilmişdir.

"Elektron Gömrük Bəyannaməsi haqqında məlumatların əldə edilməsi" gömrük xidmətində təkmilləşdirilmələr aparılmış, idxal-ixrac olunan mala görə bank ödənişləri üzrə banklar tərəfindən edilmiş qeydlərin bankların özləri tərəfindən silinməsi və onlara düzəliş edilməsi imkanı yaradılmışdır. Pul köçürmələrinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə hesabat formalarında təkmilləşdirmələr aparılmışdır.

Poçtdaşıma və kuryer şirkətləri üçün elektron ticarət platforması hazırlanmış, həmin şirkətlər üçün fiziki şəxslərə gətirdikləri yüklərin malın dəyərinə və miqdarına görə tətbiq olunan güzəştlər nəzərə alınmaqla sadələşdirilmiş qaydada rəsmiləşdirilməsi imkanı (o cümlədən "Smart Customs" mobil tətbiqində) yaradılmışdır. Hazırkı dövrə qədər 44 şirkət bu xidmətə inteqrasiya olunmuşdur.

2020-ci il ərzində elektron gömrük xidmətlərindən istifadə üzrə statistika aşağıdakı kimi olmuşdur:

| № | Xidmətin adı | Müraciətlərin sayı | | |
|---|---|---|---|---|
| | | **Cəmi** | **Azərbaycan** | **Əcnəbi** |
| 1. | e-İlkin Məlumatlandırma | 33 | | |
| 2. | e-Gömrük Bəyannaməsi/Sərnişin | 358011 | 310519 | 47492 |
| 3. | e-İdxal / İxrac Əməliyyatlarım | 227174 | | |
| 4. | e-Gömrük Ekspertizası | 1082 | | |
| 5. | e-GÖÖEN (Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması) | 43971 | 42675 | 1296 |
| 6. | e-Gömrük Ödənişləri | 2462170 | | |
| 7. | Vətəndaş müraciətləri, sorğu və şikayətlər | 3341 | | |
| 8. | Gömrük orqanlarına xidmətə qəbul üçün müraciətlər | 1 | | |
| 9. | e-Gömrük Bəyannaməsi/Mal | 815456 | | |

| | | | | |
|---|---|---|---|---|
| 10. | Gömrük bəyannamələri haqqında məlumatın verilməsi | 355817 | | |
| 11. | Sərhəd gömrük məntəqələrindən daxil olan mallarım haqqında məlumat | 284385 | | |

“Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS) ilə Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) arasında məlumat mübadiləsi yeni servis üzərindən yenidən təşkil edilmişdir.

Vergilər Xidmətinin informasiya sistemi arasında məlumat mübadiləsi üzrə servislər təkmilləşdirilmiş, Vahid Risk Platformasının yaradılması çərçivəsində “VAİS-Risk” altsisteminin Vergilər Xidmətinin analoji informasiya sisteminə inteqrasiyası təmin edilmişdir.

Komitə tərəfindən göstərilən elektron gömrük xidmətləri haqqında məlumatların Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış Dövlət Xidmətlərinin Reyestrinə daxil edilməsi təmin edilmişdir.

Maliyyə Nazirliyinin Xəzinədarlıq İdarəsinin informasiya sistemi ilə VAİS arasında malların gömrük rəsmiləşdirilməsinə görə ödənən gömrük vergi, rüsum və yığımlarına görə ödənişlər üzrə məlumat mubadiləsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yeni elektron sistemi ilə VAİS arasında məlumat mübadiləsinin aparılması təmin edilmişdir.

Sərhəddə sığorta müqaviləsinin məlumatlarını əldə etmək üçün İcbari Sığorta Bürosu ilə məlumat mübadiləsi təmin edilmişdir.

“Azadolmaların qiymətləndirilməsi” sistemi üçün lazım olan gömrük rəsmiləşdirilməsinə dair məlumatların VAİS-dən əldə edilməsinin təmin olunması məqsədilə VAİS və Maliyyə Nazirliyinn informasiya sistemi arasında məlumat mübadiləsi təmin edilmişdir.

İcazə blanklarının elektronlaşdırılması layihəsi çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Nəqliyyat vasitələri üçün İcazə Blankı” sisteminin VAİS-ə inteqrasiyası təmin edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə müəssisələrin VÖEN-inə görə həmin müəssisədə çalışan işçilər haqqında məlumatların mübadiləsi təmin edilmişdir.

Müqayisəli statistik təhlillərin aparılması məqsədilə Azərbaycan Respublikasının ticarət tərəfdaşı olan ölkələrlə xarici ticarətin gömrük statistikası məlumatlarının mübadiləsi sahəsində işlər davam etdirilmişdir. 2020-ci ildə Yunanıstan və İsrail dövlətlərinin gömrük xidmətlərinə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə həmin dövlətlərin gömrük xidmətləri arasında qarşılıqlı xarici ticarətin gömrük statistikası üzrə məlumat mübadiləsinin aparılması təklifi ilə bağlı müraciət olunmuşdur.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi arasında hər iki dövlətin sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin texniki və proqram təminatı məsələləri həll edilmiş və tərəflər arasında məlumat mübadiləsinin həyata keçirilməsinə başlanılmışdır.

Sərhəddə sürətli keçidin təmin edilməsi məqsədilə hazırlanmış “Elektron növbə” və “Sürətli keçid” elektron gömrük xidmətlərinin tətbiqinin uzaqdan idarə olunması məqsədilə yeni proqram təminatı tətbiq olunmuşdur.

Hesabat dövrü ərzində müxtəlif illər üzrə məlumatları müqayisə etməyə imkan verən və xarici ticarətin gömrük statistikasının 2014-2019-cu illər ərzindəki məlumatlarına əsasən "Azərbaycan Respublikasının xarici ticarətinin vəziyyəti ilə bağlı Analitik məlumat", ayrı-ayrı ölkələr üzrə gömrük işi ilə əlaqədar beynəlxalq təcrübəni əks etdirən və Ümumdünya Gömrük Təşkilatının 2018-2019-cu illər üzrə İllik Hesabatı"nın məlumatları əsasında "Gömrük işi - Beynəlxalq təcrübə" icmal məlumatlar, xarici ticarətin gömrük statistikasının 2020-ci il üzrə məlumatlarını aylıq və rüblük olaraq 2019-cu ilin müvafiq dövrləri ilə müqayisə etməyə imkan verən, əsas və təhlil xarakterli göstəricilərdən ibarət "Dövlət Gömrük Komitəsinin fəaliyyəti barədə Analitik məlumat" hazırlanmışdır.

Dövlət başçısının ölkəmizdə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında 30 dekabr 2019-cu il tarixli 1748 nömrəli Sərəncamına müvafiq olaraq hazırlanacaq tədbirlər planına dair təkliflər aidiyyəti üzrə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. (bu hesabat səviyyəli iş deyil vaxtı da keçib)

Dövlət Gömrük Komitəsində (28.10.2019-28.01.2020-ci il tarixlərində) 3 aylıq müddət ərzində fəaliyyət göstərən və fəaliyyətlərini uğurla başa vuran ikinci "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə 03 fevral 2020-ci il tarixdə sertifikatların təqdim olunması ilə bağlı tədbir keçirilmiş və Komitə sədri tərəfindən 4 nəfər könüllü gömrükçü gömrük orqanlarında işə qəbul olunmuşdur. Gömrük sistemində könüllü fəaliyyəti müvəffəqiyyətlə başa vurmuş 114 nəfər gəncə sertifikat təqdim edilmişdir.

Dövlət Gömrük Komitəsinin customs.gov.az rəsmi internet səhifəsinin müraciətlər bölməsində "Könüllü gömrükçü" alt bölməsi yaradılmışdır ki, bu da öz növbəsində növbəti dəfə könüllü olmaq istəyən gənclərə rahat formada müraciət etmək şəraitini yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin tövsiyələrini, könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətini rəhbər tutaraq, Dövlət Gömrük Komitəsinin sistemində gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, startap layihələri ilə bağlı cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, inkişaf etdirmək məqsədilə Komitə sədrinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sistemində könüllülük hərəkatının inkişafı ilə bağlı tədbirlər haqqında" sərəncamına müvafiq olaraq, Komitənin internet səhifəsində yaradılan alt bölmə vasitəsilə "Könüllü gömrükçü" dəstəsinə üzv olmaq istəyən 500 nəfərdən artıq gəncin müraciəti qeydə alınmış həmin müraciətlər əsasında fevral ayı ərzində müsabiqə təşkil olunaraq 3-cü "Könüllü gömrükçü" dəstəsi formalaşdırılmış və 264 nəfər könüllü gömrükçü (102 nəfər oğlan, 162 nəfər qız) 24 fevral tarixdən Komitənin aparatının, eyni zamanda Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin struktur bölmələri və digər qurumlarında fəaliyyətə başlamışlar. "Könüllü gömrükçü" dəstəsinin hər bir üzvü ilə Azərbaycan Respublikasının "Könüllü fəaliyyət haqqında" Qanununun tələbinə müvafiq olaraq müqavilə bağlanılmış, eyni zamanda hər bir könüllü xüsusi geyim dəsti ilə təmin olunmuşdur.

Ötən ilin fevral ayı ərzində "Könüllü gömrükçü" dəstəsinin üzvləri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmiş "Xocalıya Ədalət" Beynəlxalq Maarifləndirmə Kampaniyasına qoşulmuşdur. Komitənin Hava Nəqliyyatında Baş Gömrük İdarəsində fəaliyyət göstərən könüllülər kampaniya çərçivəsində Azərbaycan, ingilis dillərində çap edilən və Xocalı həqiqətlərindən bəhs edən 2400 ədəd

bukletin ölkəmizə səfər edən xarici turistlərə paylanması, onların baş verən bu qətliam barədə məlumatlandırılması işində yaxından iştirak etmişlər.

Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə ötən ilin mart ayının 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması, bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qəbul olunmuş qərara uyğun olaraq, gömrük sistemində də "Könüllü gömrükçü" dəstəsinin fəaliyyətinə müvəqqəti olaraq fasilə verilmişdir.

Koronavirus (COVİD-19) infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan bütün zəruri addımlara, xüsusilə əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərə töhfə vermək məqsədilə könüllü hərəkat və təşkilatların təşəbbüsü ilə təsis edilmiş Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) tərəfindən ölkə ərazisində start verilmiş "Könüllü qonşu" aksiyasına və yaşı 65-dən yuxarı olan şəxslərin sağlamlığını qorumaq məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qərarı ilə onların evdən çıxmalarına qadağa qoyulduğu müddətdə könüllülərimiz yaşlı və tənha şəxslərə köməklik göstərmişlər. Bu məqsədlə könüllüləri bəzi yaşayış mənzillərinin giriş hissəsində xüsusi elanlar yerləşdirmiş və elanda öz xidmətlərini təklif etmişlər.

Koronavirus (COVİD-19) qlobal pandemiyası ilə əlaqədar yaranan qan qıtlığı səbəbindən Azərbaycanda talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən, təcili əməliyyata ehtiyacı olan şəxslərin həyatı üçün təhlükəni aradan qaldırmaq məqsədilə AKƏM Milli Hemotologiya və Transfuziologiya Mərkəzi ilə birgə "Könüllü Donor" aksiyasına start vermiş və könüllülər çox saylı gömrük əməkdaşı ilə birlikdə bu aksiyada iştirak edərək qan vermişlər.

Hesabat dövrü ərzində "Dövlət Gömrük Komitəsinin sistemində könüllü fəaliyyətin təşkilinə dair" Metodika hazırlanmışdır.

Məlum olduğu kimi, ötən ilin iyul ayının 12-dən etibarən Ermənistan Silahlı Qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutmuşdur. Törədilən təxribatla bağlı dünya ictimaiyyətinin məlumatlandırılması, ölkəmizin haqq səsinin, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması, erməni vandalizminin, erməni terrorçularının beynəlxalq hüquqla bir araya sığmayan hərəkətlərinin tənqid olunması istiqamətində beynəlxalq dairələrin dəstəyinin alınması məqsədilə "Könüllü gömrükçü" dəstəsinin xarici dil bilikləri olan üzvlərindən ibarət müxtəlif qruplar formalaşdırılmış və onlar ABŞ konqresmenlərinin, xüsusilə, ermənipərəst konqresmenlərin şəxsi sosial şəbəkə ünvanlarına, elektron poçtlarına rus, fransız və ingilis dillərində 100-ə yaxın məktub ünvanlayaraq Azərbaycanla bağlı həqiqətləri təqdim etmiş, konqresmenləri beynəlxalq hüquq və normalar mövqeyindən çıxış etməyə səsləmişlər. Öz mənfur niyyətlərindən əl çəkməyən erməni silahlı birləşmələrinin sentyabr ayının 27-də növbəti dəfə atəşkəs rejimini pozmaq cəhdinə cavab olaraq ordumuz tərəfindən başladılan əks-həmlə əməliyyatlarının başlaması informasiya müharibəsini yenidən alovlandırmışdır. Vətən müharibəsinin ilk günündən etibarən "Könülü gömrükçü" dəstəsinin üzvləri də informasıya cəbhəsinə qoşulmuş, ölkəmizin haqq davasında Ali Baş Komandanımız cənab İlham Əliyevin ətrafında sıx birləşən xalqımızı, işğal olunmuş torpaqlarımız uğrunda rəşadətlə

vuruşaraq bizə qələbə sevinci yaşadan şanlı ordumuzu dəstəkləmək üçün bütün mümkün vasitələrdən yararlanmışlar. Demək olar ki, hər gün Facebook, İnstagram, Twitter sosial şəbəkələri vasitəsilə erməni terrorizmindən, ölkəmizin dinc sakinlərinə qarşı törədilən cinayətlərdən bəhs edən (#KarabakhisAzerbaijan, #Karabakh, #StopArmenianAggression və digər həştəqlərdən istifadə etməklə) 10 000-lərlə foto, video və digər məlumatlar paylaşmışlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çağırışına cavab olaraq, koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində AKƏM tərəfindən həyata keçirilən layihələrdə fəal iştiraklarına görə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin imzası ilə 69 nəfər könüllü gömrükçü təşəkkürnamə ilə təltif olunmuşdur.

Eyni zamanda, Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə 5 dekabr 2020-ci il tarixdə Beynəlxalq Könüllülər Günü münasibəti ilə iki minə yaxın könüllünün iştirak etdiyi “Qarabağ Azərbaycandır! Azərbaycan Könüllülərinin III Həmrəylik Forumu”nda “Könüllü gömrükçü” dəstəsinin üç nəfər üzvü “Pandemiya dövründə könüllülük”, “Müharibə dövründə könüllülük”, “Sosial könüllülük” kateqoriyaları üzrə mükafatlarla təltif olunmuşlar.

Ötən il vətəndaşlar tərəfindən Dövlət Gömrük Komitəsinin Çağrı Mərkəzinə 82945 müraciət daxil olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə edilmiş müraciətlərin (53075) sayından 29870 çox olmuşdur. Çağrı Mərkəzinin müasir gömrük xidmətinə uyğunlaşdırılması məqsədilə fasiləsiz rejimdə 7 gün 24 saat fəaliyyəti təşkil edilmiş və hazırda yeni yaradılmış “Smart Customs” mobil tətbiqi üzərindən gələn sorğuların real vaxt rejimində pilot variantda cavablandırılması bu Mərkəz tərəfindən həyata keçirilir.

## VIII. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

2020-ci ildə gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə digər ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlərin hazırlanması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

27 aprel 2020-ci il tarixdə Bakı şəhərində Dövlət Gömrük Komitəsinin sədri cənab Səfər Mehdiyev və 28 aprel 2020-ci il tarixdə Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Yük Hədəfləmə Sisteminin Administrasiya və Heyət üzrə rəhbəri cənab Hans Pietersin iştirakı ilə “ÜGT-nin Yük Hədəfləmə Sisteminin (YHS) tətbiq edilməsi üzrə Müqavilə” imzalanmışdır.

“Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Gömrük Orqanı arasında Saziş” layihəsinin mətni hazırlanaraq münasibətin bildirilməsi üçün işçi qaydada qarşı tərəfə təqdim edilmişdir.

“Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş”, “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Rusiya Federasiyası Federal Gömrük Xidməti arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin

nəticələrinin elektron şəkildə qarşılıqlı tanınması haqqında Protokol", "Azərbaycan Respublikasının Hökuməti ilə Əfqanıstan İslam Respublikasının Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım və əməkdaşlıq haqqında Saziş" imzalanma üçün tam hazırlanmışdır.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikası və Belarus Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Saziş"ə müvafiq olaraq hazırlanmış "Texniki şərtlər sənədi" imzalanmışdır.

"Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında Avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Saziş"ə müvafiq olaraq hazırlanmış "Texniki şərtlər sənədi" imzalanmışdır.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sadələşdirilmiş gömrük dəhlizi haqqında Anlaşma Memorandumu"na müvafiq olaraq Türkiyə Ticarət Nazirliyi tərəfindən hazırlanmış "Texniki şərtlər sənədi"nin layihəsi münasibətin bildirilməsi üçün Türkiyə tərəfinə təqdim edilmişdir.

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi arasında Saziş"ə müvafiq olaraq hazırlanmış "Texniki şərtlər sənədi"nin Dövlət Gömrük Komitəsində ümumiləşdirilmiş layihəsi münasibətin bildirilməsi üçün qarşı tərəfə təqdim edilmişdir.

"Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş"ə müvafiq olaraq hazırlanmış "Texniki şərtlər sənədi"nin imzalanması təklifinə dair məktub Türkmənistan Gömrük Xidmətinə göndərilmişdir.

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara və gömrük işi sahəsində imzalanmış ikitərəfli sazişlərə müvafiq olaraq, xarici ölkələrin gömrük xidmətlərinə gömrük işi sahəsində inzibati yardım göstərilməsi məqsədilə 225 sorğu göndərilmiş və 128 sorğuya cavab alınmışdır.

2020-ci il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər hazırlanmış və keçirilmişdir:

23-24 yanvar 2020-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Bergen Anlaşması"nın yeni redaksiyasının hazırlanması məsələsinin müzakirə edilməsi məqsədilə işçi qrupun iclası;

27-28 yanvar 2020-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələrinin Kinoloji Xidmətlərinin nümayəndələri üçün kinologiya sahəsində qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi üzrə seminar;

27-29 yanvar 2020-ci il tarixlərində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ÜGT-nin Avropa Regionu üzrə Milli Əlaqələndirici Şəxslərin 3-cü iclası;

3 fevral 2020-ci il tarixdə "Sərnişinlərə dair İlkin Məlumat və Sərnişin Adlarının Qeydiyyatı" üzrə dördtərəfli texniki görüş;

3-7 fevral 2020-ci il tarixlərdə ABŞ Hökumətinin təşkilatçılığı ilə DGK-nın əməkdaşları üçün Türkiyə Respublikasının Ədirnə şəhərində “Gömrük xəttində xidmət edən zabitlər üçün sərhədlərin mühafizəsi” mövzusunda təlim;

3-12 fevral 2020-ci il tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində və Dövlət Gömrük Komitəsinin Akademiyasında Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Qış məktəbi;

19-20 fevral 2020-ci il tarixlərində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Amerika Birləşmiş Ştatları Beynəlxalq Hüquqi Araşdırmalar üzrə Müdafiə İnstitutu tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün beynəlxalq humanitar hüquq sahəsində təlim seminarı;

2-6 mart 2020-ci il tarixlərində Moldova Respublikası və Ukrayna gömrük xidmətlərinin nümayəndələri üçün elektron alətlərin və avtomatlaşdırılmış video müşahidə sistemlərinin sərhəd keçid məntəqələrində tətbiq edilməsi sahəsində Dövlət Gömrük Komitəsinin təcrübəsinin öyrənilməsi məqsədilə təlim;

2-6 mart 2020-ci il tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ABŞ-ın ölkəmizə ezam olunmuş beynəlxalq təlimçiləri tərəfindən Azərbaycan gömrük orqanlarının əməkdaşlarına "X-Ray (rentgen) təsvirlərinin təhlili" mövzusunda təlimlər;

3-11 mart 2020-ci il tarixlərində Dövlət Gömrük Komitəsində və Komitənin strukturuna daxil olan müvafiq qurumlarda Ümumdünya Gömrük Təşkilatının Risklərin İdarəedilməsi üzrə Diaqnostik Missiya;

22 aprel 2020-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın sədrliyi ilə videokonfrans;

27 aprel 2020-ci il tarixdə Dövlət Gömrük Komitəsi və İran İslam Respublikasının Gömrük İdarəsinin nümayəndə heyətləri arasında onlayn rejimdə müzakirələr;

6 may 2020-ci il tarixdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv və müşahidəçi ölkələrin iqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında müzakirələri;

14 may 2020-ci il tarixdə Demokratiya və İqtisadi İnkişaf naminə təşkilat – GUAM-ın Ticarətə və Nəqletməyə yardım layihəsinin Rəhbəredici Komitəsinin növbəti iclasına hazırlıq məqsədilə ekspertlərin videokonfrans formatında görüşü;

10 iyun 2020-ci il tarixdə QDİƏT-in videokonfrans şəklində görüşü;

12 iyun 2020-ci il tarixdə ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Ofislərinin əlaqələndirici şəxslərinin videokonfrans formatında iclası;

19 iyun 2020-ci il tarixdə ÜGT Şurasının sədri vəzifəsinə təyinatla bağlı məsələnin müzakirəsi məqsədilə MDB üzv dövlətlərin gömrük xidmətləri arasında videokonfrans;

19 iyun 2020-ci il tarixdə ATƏT-in "Xəzər dənizi regionunda yaşıl limanların və bağlantıların təşviqi" layihəsinin ikinci fazasının onlayn təqdimatı;

25 iyun 2020-ci il tarixdə videokonfrans formatında ÜGT Şurasının 135/136-cı sessiyaları;

30 iyun 2020-ci il tarixdə ÜGT Şurasının videokonfrans formatında 135/136-cı sessiyalarının yekunlarının müzakirəsi məqsədilə MDB üzv dövlətlərin gömrük xidmətləri arasında videokonfrans;

2 iyul 2020-ci il tarixdə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə məsələləri üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi - Mərkəzi Asiya Regional Məlumat

və Əlaqələndirmə Məzkəzi - BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi arasında üçtərəfli formatda videokonfrans;

8 iyul 2020-ci il tarixdə İran İslam Respublikasının gömrük xidmətinin təşəbbüsü ilə iki ölkənin gömrük xidmətləri arasında ekspertlər səviyyəsində videokonfrans formatında görüş;

9 iyul 2020-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təşəbbüsü əsasında Yük Hədəfləmə Sistemi (YHS) layihəsinin üzvləri ilə Yük Hədəfləmə Sisteminin Azərbaycan Respublikasında tətbiqinə başlanması ilə bağlı videokonfrans formatında görüş;

21 iyul 2020-ci il tarixdə Rusiya Federasiyasının Azərbaycandakı Ticarət Nümayəndəliyinin təşəbbüsü əsasında Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov ilə Rusiya Federasiyasının Azərbaycandakı Ticarət Nümayəndəliyinin Ticarət nümayəndəsi Ruslan Mirsayapov və “Rostselmaş” Kombayn zavodu MMC-nin ixrac üzrə direktoru Pavel Yesenko arasında qarşılıqlı əməkdaşlığın perspektivlərinin müzakirəsi ilə bağlı videokonfrans formatında görüş;

24 iyul 2020-ci il tarixdə Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin təşəbbüsü əsasında Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov ilə Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soli və “Agromall” MMC-nin rəhbəri Həsən Şərifov arasında iki ölkənin ticarət əlaqələrinin inkişaf perspektivləri ilə bağlı videokonfrans formatında görüş;

27, 29 və 30 iyul 2020-ci il tarixlərində Amerika Birləşmiş Ştatlarının İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində kütləvi qırğın silahlarının yayılması ilə bağlı istintaqlar üzrə Dövlət Gömrük Komitəsinin nümayəndələri üçün onlayn təlim;

2 sentyabr 2020-ci il tarixdə İran İslam Respublikasının Gömrük Administrasiyasının rəsmi müraciəti əsasında videokonfrans formatında görüş;

8,21,22,23,24,25,28 sentyabr 2020-ci il tarixlərdə Koreya Gömrük Xidmətinin təşəbbüsü ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti ilə Koreya Gömrük Xidmətinin nümayəndə heyəti arasında Gömrük Modernləşdirilməsi Layihəsi çərçivəsində videokonfrans formatında görüşlər;

31 avqust – 11 sentyabr 2020-ci il tarixdə ABŞ-ın İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində Dövlət Gömrük Komitəsinin nümayəndələri üçün Türkiyə Respublikasının Antalya şəhərində Kiçik Gəmi Əməliyyatları üzrə birgə təlim kursu;

14 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının, Əfqanıstan İslam Respublikasının və Türkmənistanın gömrük xidmətləri arasında gömrük və sərhəd məsələləri bölməsi üzrə alt işçi qrupun rəhbərlərinin videokonfrans formatında ikinci iclası;

15 sentyabr 2020-ci il tarixdə Dünya Bankı Qrupunun (DBQ) üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası ilə Dövlət Gömrük Komitəsi arasında videokonfrans formatında görüş;

29 sentyabr 2020-ci il tarixdə Azərbaycan mənşəli kənd təsərrüfatı məhsullarının Rusiya Federasiyasının ərazisinə ixracına dair məsələlər üzrə İşçi Qrupunun videokonfrans formatında 2-ci iclası;

8 oktyabr 2020-ci il tarixdə Rusiya Federasiyasının “Yaraq-Qazmalar” gömrük sərhəd buraxılış məntəqəsində aparılacaq yenidənqurma işləri zamanı avtomobil daşımalarına alternativ olaraq dəmir yolu nəqliyyatından istifadə olunması və xarici iqtisadi fəaliyyət iştirakçıları üçün malların rahat və rentabelli daşınmasının logistik sxeminin işlənib

hazırlanması məsələlərinin müzakirə edilməsi məqsədilə hər iki ölkənin aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə videokonfrans formatında görüş;

20 noyabr 2020-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə Gömrük Xidməti Rəhbərlərinin videokonfrans formatında iclası;

28 dekabr 2020-ci il tarixdə Türkiyə gömrük xidmətinin mütəxəssisləri tərəfindən beynəlxalq poçt göndərişləri və elektron ticarət sahəsində gömrük nəzarətinin həyata keçirilməsi, o cümlədən rəsmiləşdirmə prosedurları ilə bağlı qabaqcıl təcrübəyə dair Dövlət Gömrük Komitəsinin nümayəndələri üçün videokonfrans formatında seminar;

29 dekabr 2020-ci il tarixdə “Schmitt & Orlov Intellectual Property” şirkətinin mütəxəssisləri tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün “LACOSTE” və “COTY” şirkətinin kontrafakt malların müəyyən edilməsi sahəsində seminar.

Hesabat dövründə Dövlət Gömrük Komitəsinin sədri bir sıra ikitərəfli görüşlər keçirmişdir:

28 yanvar 2020-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatı Potensialın Gücləndirilməsi Direktoratlığının direktoru Taeil Kang ilə;

11 fevral 2020-ci il tarixdə Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM Baş katibi Altay Əfəndiyevlə;

13 fevral 2020-ci il tarixdə İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Corc Dik ilə;

21 fevral 2020-ci il tarixdə Litva Respublikasının Azərbaycan Respublikasındakı səfiri cənab Eqidius Navikas ilə;

4 mart 2020-ci il tarixdə Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dok. Həməd bin Abdullah bin Xudeyr ilə;

10 iyul 2020-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə sədr müavini cənab Səfər Mehdiyev ilə Avropa İttifaqının Beynəlxalq Əlaqələr və Ümumi İşlər üzrə direktoru xanım Sabina Henzler arasında videokonfrans formatında görüş;

19 avqust 2020-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi, Şura Sədri vəzifələrinin müvəqqəti icraçısı və Şura Sədrinin müavinləri ilə videokonfrans formatında görüş;

7 oktyabr 2020-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının və Şuranın 2020-ci ilin dekabr ayında keçirilmiş sessiyalarının təşkili ilə bağlı müzakirələrə həsr edilmiş videokonfrans;

15 oktyabr 2020-ci il tarixdə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Seyid Abbas Musəvi ilə;

16 oktyabr 2020-ci il tarixdə Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Vada Cüniçi ilə;

20 oktyabr 2020-ci il tarixdə Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Bahrom Əşrəfxanov və 25 noyabr 2020-ci il tarixdə İtaliya Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Augusto Massari ilə görüş.

ÜGT-nin Hüquq Mühafizə Komitəsinin növbəti sessiyasında müzakirə edilməsi məqsədilə Avropa regionu üçün 3 əsas hüquq mühafizə prioriteti - Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə münasibətdə nağd pulun sərhədlərarası daşınmasına qarşı mübarizə, həmçinin bu sahədə tərəfdaş administrasiyalarla institusional əməkdaşlıq;

Sərhədlərarası elektron ticarət, internet üzərindən törədilən cinayətlər, yəni internet, sosial şəbəkələr vasitəsilə saxta malların təklif edilməsi; Narkotik vasitələrin qanunsuz ticarəti, xüsusilə yüksək zəhərlənmə riski və həyat üçün təhlükə yaradan maddələrin və sintetik narkotiklərin prekursorlarının idxalı; regionun üzv dövlətləri ilə birgə müəyyən edilərək ÜGT Katibliyinə göndərilmişdir.

ÜGT-nin "Qlobal Məlumat və Araşdırma Strategiyası Layihəsi Qrupu"na təqdim edilmiş namizədliklər əsasında 3 üzv dövlət, Türkiyə Respublikası, Rusiya Federasiyası və Avropa İttifaqı müəyyən edilərək adıçəkilən layihə qrupuna daxil olunması üçün ÜGT Katibliyinə təqdim edilmişdir.

Gömrük Məcəlləsinin Azərbaycan və ingilis dillərindəki yeni layihəsi biznes mühitinin rəy və təkliflərinin alınması məqsədilə Avropa İttifaqının, Dünya Bankının və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycandakı nümayəndəliklərinə, eləcə də Alman-Azərbaycan, Amerika-Azərbaycan, Avstriya-Azərbaycan və Fransa-Azərbaycan Ticarət Palatalarına göndərilmişdir.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ötən il 27 sentyabr tarixdə Ermənistan tərəfindən başlanılmış hərbi təcavüz çərçivəsində ölkəmizin mülki əhalisinə qarşı həyata keçirilmiş terror aktlarına dair ÜGT üzv ölkələrinin gömrük xidmətlərinə məlumatlandırma xarakterli məktublar göndərilmişdir. Qeyd edilməlidir ki, Şimali Makedoniya, İsveç Krallığı, İspaniya Krallığı və Polşa Respublikasından Dövlət Gömrük Komitəsinə daxil olmuş məktublarda Ermənistanın təcavüzü pislənilmiş və ölkəmizin apardığı haqq işi dəstəklənmişdir.

## IX. GÖMRÜK SƏRHƏD BURAXILIŞ MƏNTƏQƏLƏRİNİN İŞİNİN TƏŞKİLİ, GÖMRÜK İNFRASTRUKTURU VƏ GÖMRÜK EKSPERTİZASI İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 mart 2020-ci il tarixli 3563/2268 aid nömrəli dərkənarı ilə təsdiq olunmuş "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Sərhəddə ticarət işçi qrupunun 2020-ci il üçün Fəaliyyət Planı"nın 1-ci yarımbəndinin (ölkə ərazisinə gələn və ölkə ərazisini tərk edən şəxslər və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin effektivliyinin daha da artırılması məqsədilə gömrük sərhəd buraxılış məntəqələrinin mövcud infrastrukturunun genişləndirilməsi) və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16 yanvar 2020-ci il tarixli 15 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı"nın 5.1-ci bəndinin icrası ilə əlaqədar gömrük sərhəd buraxılış məntəqələri üzrə infrastrukturun yaxşılaşdırılması, eləcə də sərhəd-keçid prosedurlarının daha da sadələşdirilməsinə dair təkliflər hazırlanmış və 30 mart 2020-ci il tarixli 1000-140/001-21/006368 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

"Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında bir pəncərə prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2008-ci il tarixli 12 nömrəli Fərmanına uyğun olaraq dövlət sərhədinin buraxılış məntəqələrindən malların və nəqliyyat vasitələrinin keçidinin daha da sürətləndirilməsi məqsədilə mal və nəqliyyat vasitələrinin qeydiyyatı, yol vergilərinin hesablanması və icazə blanklarının tətbiqi, eləcə də malların baytarlıq, fitosanitar

və sanitariya nəzarətinə aid olan sənədlərinin və sertifikatlarının yoxlanılması “bir pəncərə” üzrə “bir inspektor - bir nəqliyyat vasitəsi” prinsipi əsasında həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 dekabr 2004-cü il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş “Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı"nda dəyişikliklər edilməsi barədə Nazirlər Kabinetinin Qərar layihəsi aidiyyəti dövlət orqanlarının rəy və təklifləri əsasında yenidən işlənərək “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və yekun olaraq Qərar layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 noyabr 2020-ci il tarixli 449 nömrəli qərarı ilə qüvvəyə minmişdir.

Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunda sərnişin nəqliyyatı binasının yenidən qurulması və genişləndirilməsi, nəqliyyat vasitələrinin yoxlanılması üçün “NUCTECH PB2028TD Fixed Scanner” rentgen qurğusunun tikinti işləri və dəmiryolu gömrük postunda dəmiryolu üzərində “HCVT-6032” tipli X-RAY rentgen-nəzarət buraxılış məntəqəsinin tikinti işləri yekunlaşmaq üzrədir.

Qərb Ərazi Baş Gömrük İdarəsinin “Tovuz gömrük terminalı və anbarları”nın ərazisində yardımçı binaların tikinti işləri başa çatmış və ərazidə Ticarətin Asanlaşdırılması Mərkəzi (TAM) istismara verilmişdir. Eyni zamanda, ərazidə yük maşınlarının yoxlanılması üçün yeni rentgen qurğusunun layihə-smeta sənədləri ekspertiza olunmuş və müvafiq rəylər alınmışdır.

Mərkəzi Gömrük Hospitalının tabeçiliyinə verilmiş 5 mərtəbəli yeni korpusunun yenidən qurulması ilə əlaqədar layihə-smeta sənədləri ekspertiza olunaraq müvafiq rəylər alınmış, təmir və yenidənqurma işləri başlamışdır.

Komitənin yeni inzibati binasının və Xaçmaz rayonu ərazisində tikilən Şimal Ərazi Baş Gömrük İdarəsi “Xanoba” gömrük postunun kompleks tikintisi üzrə tikinti-quraşdırma işləri ilə əlaqədar layihə-smeta sənədləri hazırlanmış, satınalma müqavilələri bağlanmış və hal-hazırda tikinti işləri davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının 11-ci maddəsinin 2-ci abzasında qeyd olunan məsələnin icrası ilə bağlı Mərkəzi Gömrük Ekspertizası İdarəsi tərəfindən ölkə ərazisinə idxal edilən yüngül minik nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi və qeydiyyata alınması üçün 44838 ədəd nəqliyyat vasitəsinin Avro-4 ekoloji normalarına uyğunluğun yoxlanılması məqsədilə daxil olmuş müraciətlər araşdırılmaqla 41712 ədəd texniki eyniləşdirmə şəhadətnaməsi və 3074 müsbət rəy verilmişdir. Yoxlamalar nəticəsində 37 nəqliyyat vasitəsinin Avro-4 ekoloji standartına uyğun olmadığı və 1 ədəd nəqliyyat vasitəsinin təhlükəsizlik yastığının, 14 ədəd nəqliyyat vasitəsində isə ABS əyləc sisteminin olmadığı müəyyən olunmuşdur.

Konsepsiyanın 7.5-ci maddəsinin 6-cı abzasında qeyd olunan daxili bazarın təhlükəli məhsullardan qorunmasında, ticarətdə texniki maneələrin aradan qaldırılmasında, sahibkarlığın inkişafında əhəmiyyəti böyük olan standartlaşdırma sistemin beynəlxalq tələblərə uyğunlaşdırılması və təkmilləşdirilməsi üzrə zəruri tədbirlər davam etdirilmişdir.

## X. KADR MƏSƏLƏLƏRİ, PEŞƏKARLIĞIN ARTIRILMASI VƏ TİBBİ XİDMƏTİN GÖSTƏRİLMƏSİNƏ DAİR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Hesabat dövründə 86 nəfər işə qəbul edilmiş, 52 nəfər işdən azad edilmiş, müvafiq təqdimatlar və rotasiya qaydasında 180 əməkdaşın xidməti vəzifə yeri dəyişdirilmiş, 64 əməkdaş Fəxri Fərman, 103 əməkdaş Təşəkkür, 82 əməkdaş vaxtından əvvəl növbəti xüsusi rütbə, 25 əməkdaş tutduğu vəzifə üçün nəzərdə tutulandan bir pillə yuxarı növbəti xüsusi rütbə, 169 əməkdaş pul mükafatı, 4 əməkdaş “Gömrük orqanlarında xidmətə görə” 1-ci dərəcəli döş nişanı, 21 əməkdaş 2-ci dərəcəli döş nişanı, 62 əməkdaş 3-cü dərəcəli döş nişanı, 21 əməkdaş “Gömrük xidməti əlaçısı” döş nişanı, 16 əməkdaş “Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə” döş nişanı, 11 əməkdaşın üzərindən tətbiq edilmiş intizam tənbehi vaxtından əvvəl geri götürülmüş və 5 vətəndaş “Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə” döş nişanı ilə təltif edilmişdir.

Həmçinin, 156 gömrük orqanı əməkdaşı intizam məsuliyyətinə cəlb edilmiş, 5 nəfər gömrük orqanlarından xaric edilmiş, 3 nəfər tutduğu vəzifədən azad edilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmiş, 8 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 117 nəfərə töhmət elan edilmiş və 22 nəfərə irad tutulmuşdur.

Ümumdünya Gömrük Təşkilatının insan resurslarının inkişafı proqramı çərçivəsində magistr təhsili alması üçün 1 nəfər gömrük orqanı əməkdaşı Yaponiyanın Milli Siyasi Araşdırmalar İnstitutuna (Grips) qəbul edilmişdir.

Aidiyyəti universitetlərin müraciətləri əsasında 163 nəfər tələbə istehsalat təcrübəsinə cəlb olunmuşdur. COVİD-19 (koronavirus) pandemiyası ilə əlaqədar olaraq tələbələrin istehsalat təcrübəsini başa çatdırmaları mümkün olmamışdır.

Avropa İttifaqı üzvü olan 10 ölkə, həmçinin Türkiyə Respublikasının, ABŞ-ın, Böyük Britaniya Krallığının Azərbaycandakı səfirlikləri ilə əlaqələr yaradılmış, Litvanın, Latviyanın, Ukraynanın, Almaniyanın, İspaniyanın Koreyanın və Belarusun müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişafı ilə bağlı tədris və elmi əməkdaşlıq məsələləri yer almış ikitərəfli müqavilələr və memorandumlar imzalanmışdır.

Dövlət Gömrük Komitəsinin Akademiyası ölkədə ilk olaraq edX MİT və Harvard Universitetinin yaratdığı "Online Campus" qlobal nüfuzlu təhsil platformasına qoşulmuş, həmçinin BMT Qlobal Sazişinə, UNGC-nin Məsuliyyətli İdarəetmə Təhsilinin Prinsipləri (PRME) proqramına, Qara Dəniz Universitetləri Şəbəkəsinə üzv qəbul olunmuşdur.

Gömrük orqanlarının 37 əməkdaşı e-Learning modullarına və digər resurslara qoşulmuş, onlardan 4 nəfəri 9 kursu keçərək sertifikatlar əldə etmişdir.

Dövlət Gömrük Komitəsinin Akademiyası tərəfindən Çin Xalq Respublikasının, Estoniyanın, Şimali Makedoniyanın təhsil müəssisələri ilə əməkdaşlıq haqqında müqavilələrin imzalanmasına hazırlıq işləri görülmüş, Türkiyənin 3 universiteti, Qazaxstan, Özbəkistan, Rusiyanın gömrük işinin təşkili sahəsində mütəxəssis hazırlayan ali təhsil müəssisələri və Qırğızıstanın Dövlət Gömrük Komitəsinin Təlim Mərkəzi ilə əməkdaşlıq əlaqələri razılaşdırılmışdır.

Dövlət Gömrük Komitəsinin Akademiyası Avropa Komissiyasının qrantı əsasında 2020-2023-cü illərdə həyata keçiriləcək ERASMUS+ “WORK4CE" layihəsinin Ukraynadan, Belçikadan, Almaniyadan, Azərbaycandan və İspaniyadan olan 8 ali təhsil müəssisəsinin daxil olduğu konsorsiumun üzvü olmuşdur.

Ötən il ərzində 129 tələbə, 63 gömrük əməkdaşı dünyanın müxtəlif universitetlərinin təşkil etdiyi kurslarda təlimlərə qoşulmuş, sonunculardan 18 nəfəri həmin universitetlərdən 41 sertifikat əldə etmişdir. Bu platformadan istifadə üçün daha 2500 lisenziya əldə edilmişdir.

Gömrük Akademiyası ilk olaraq həm də tələbələrin və gömrük əməkdaşlarının "Coursera for Campus" proqramı çərçivəsində təlimlərə qoşulması üçün imkan yaratmış, Ümumdünya Gömrük Təşkilatının "CLiKC!" onlayn təhsil platformasında e-Learning kurslarından istifadə üzrə Milli Koordinatorun icazə sistemini bərpa etmişdir.

2019/2020-ci tədris ilinin yekunu olaraq təhsil proqramlarını tam mənimsəmiş və yekun dövlət attestasiyasından keçmiş 050404 – "İqtisadiyyat" ixtisası üzrə 19, 050212 – "Hüquqşünaslıq" ixtisası üzrə 21 tələbə bakalavriat səviyyəsinin məzunu olmuşdur.

Bakalavriat səviyyəsinə "İqtisadiyyat", "Hüquqşünaslıq", "Beynəlxalq ticarət və logistika" və "İnformasiya təhlükəsizliyi" ixtisaslarına 154 abituriyent, magistratura səviyyəsinə isə "Dünya iqtisadiyyatı" ixtisasının "Gömrük işi" və "Hüquqşünaslıq" ixtisasının "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşmalarına 15 bakalavr qəbul edilmişdir.

2021/2022-ci tədris ilində bakalavriat səviyyəsinə "İqtisadiyyat", "Hüquqşünaslıq", "Beynəlxalq ticarət və logistika", "İnformasiya təhlükəsizliyi" və yeni "İnformasiya texnologiyaları" ixtisaslarına 140 abituriyentin, magistratura səviyyəsinə isə "Dünya iqtisadiyyatı" ixtisasının "Gömrük işi" və yeni "Hüquqşünaslıq" ixtisasının "Beynəlxalq hüquq" ixtisaslaşmalarına 10 bakalavrın qəbul edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə sifariş təqdim edilmişdir.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı ötən il birinci dəfə 11 iyun 2020-ci il tarixdən 27 sentyabr 2020-ci il tarixədək, ikinci dəfə isə 20 noyabr 2020-ci il tarixdən etibarən COVİD-19 infeksiyası ilə mübarizəyə qoşularaq pandemiya xəstəxanası kimi fəaliyyət göstərmişdir. Bu müddət ərzində koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlər çərçivəsində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) dəstəyi ilə ölkənin digər tibb müəssisələrindən Mərkəzi Hospitala ezam olunmuş həkim-mütəxəssislərin iş prosesinə başlaması qanunvericiliyə uyğun şəkildə təşkil edilərək həyata keçirilmişdir. Bu dövrdə kadr potensialını gücləndirmək məqsədilə əlavə işçilər qəbul edilərək koronavirusla mübarizəyə cəlb edilmişlər.

Tibbi Xidmət İdarəsinə edilmiş ümumi müraciətlərin sayı 74853 (ödənişli - 42653 (56,9 %), təşkilati - 32200 (43,1 %) olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2020-ci il tarixli 161s nömrəli Sərəncamına əsasən Dövlət Gömrük Komitəsinin tabeliyinə verilmiş "Baku Caspian Hospital" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi ilə bağlı fəaliyyət hesabat ilində Tibbi Xidmət İdarəsinin icra etdiyi vəzifələr sırasında böyük yer almışdır. Ləğv edilmiş qurumun 119 nəfər əməkdaşı təsərrüfat hesablı Mərkəzi Hospitalın ştat cədvəlinə əlavə olunmuş Poliklinika-2 şöbəsinə, 1 nəfər Qadın Sağlamlıq Mərkəzinə işə qəbul olunmuşdur.

Hesabat dövrü ərzində Tibbi Xidmət İdarəsi, Mərkəzi Hospital, Qadın Sağlamlıq Mərkəzi üzrə 187 əməkdaş (Tibbi Xidmət İdarəsi üzrə 2 nəfər, Mərkəzi Hospital üzrə 7 nəfər, təsərrüfat hesablı Mərkəzi Hospitalı üzrə 171 nəfər, Qadın Sağlamlıq Mərkəzi üzrə 7 nəfər) işə qəbul olunmuşdur.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi" devizi altında keçirilən Respublika baxış-müsabiqəsinin qalibi olmuşdu.

Koronavirus (Covid-19) xəstəliyinin qarşısının alınması məqsədilə Dölət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən tədbirlər planı hazırlanmış və plana uyğun olaraq Bakı Hava Limanında və sərhəd keçid məntəqələrində tibbi müayinə postları yaradılmış,

Mərkəzi Hospitalın həkim və orta tibb işçiləri bu postlarda növbəli şəkildə, gündə 24 saat olmaqla fəaliyyət göstərmişlər. Mərkəzi Gömrük Höspitalının həkimləri COVID-19 infeksiyası barədə ictimaiyyətin məlumatlandırılmasında fəal iştirak etmişdir.

26 avqust 2020-ci il tarixdə Heydər Əliyev Fondu ilə birgə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi Bilgəh qəsəbəsində yerləşən Müharibə və Əmək Əlilləri pansionatında "Sağlam Ahıllar" xeyriyyə layihəsini həyata keçirmişdir. Layihə çərçivəsində Tibbi Xidmət İdarəsinin həkimləri pansionatın yaşlı sakinlərini müayinə edib, onlara tibbi məsləhətlər verib, lazım olan müalicələri təyin ediblər. Ümumilikdə, tədbir çərçivəsində həkim briqadası tərəfindən pansionatın 150-yə yaxın sakini kardioloji, oftalmoloji, doppler və ultrasəs müayinələrindən keçirmişlər.

## XI. DÖVLƏT ORQANLARI VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR

2020-ci il ərzində Dövlət Gömrük Komitəsinə cəmi 49173 sənəd daxil olmuşdur, o cümlədən 4931 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Milli Məclisdən, Nazirlər Kabinetindən, 2372 sənəd Nazirlik, Komitə və digər icra hakimiyyəti orqanlarından, 1951 sənəd hüquq-mühafizə orqanlarından, 1495 sənəd xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, 11700 sənəd müxtəlif təşkilatlar və hüquqi şəxslərdən, 7019 sənəd Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan qurumlardan, 9563 sənəd vətəndaşlardan Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində qeydə alınmışdır. Vətəndaşlardan daxil olmuş müraciətlər qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmış və cavablandırılmışdır.

Hesabat dövrü ərzində Komitədən 25075 sənəd xaric olunmuşdur. Onlardan 501 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Milli Məclisə, Nazirlər Kabinetinə, 1984 sənəd Nazirlik, Komitə və digər icra hakimiyyəti orqanlarına, 2946 sənəd hüquq-mühafizə orqanlarına, 842 sənəd xarici dövlətlərə, beynəlxalq təşkilatlara və səfirliklərə, 4253 sənəd müxtəlif təşkilatlara və hüquqi şəxslərə, 10142 sənəd Dövlət Gömrük Komitəsinın strukturuna daxil olan qurumlara, 4407 sənəd fiziki şəxslərə göndərilmişdir.

Dövlət Gömrük Komitəsinin əsas fəaliyyəti ilə bağlı 239 sərəncam, şəxsi heyət üzrə 667, əməkdaşların ezamiyyə və məzuniyyətləri ilə bağlı 966 əmr, 7 qərar, 134 sertifikat və icazə Kargüzarlıq işinin təşkili şöbəsində qeydiyyata alınmışdır. İnzibati xəta haqqında iş üzrə 13 qərar qeydiyyata götürülmüş, Dövlət Gömrük Komitəsi əməkdaşlarına verilmiş 180 müxtəlif arayış qeydə alınmışdır.

Azərbaycan Respublikasının dövlət sirrinin mühafizəsi işi sahəsində qüvvədə olan qanunvericilik aktları, digər normativ-hüquqi sənədlər rəhbər tutularaq məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması, məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması istiqamətində fəaliyyətin formalaşdırılması və təkmilləşdirilməsi üzrə konkret tədbirlər görülmüş, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Milli Məclisdən, Nazirlər Kabinetindən, Nazirlik, Komitə və digər icra hakimiyyəti orqanlarından daxil olan müvafiq sənədlərin qanunla nəzərdə tutulmuş müddətlərdə baxılması təmin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyaya və Dövlət Təhlükəsizliyi Xidmətinə müvafiq hesabatlar verilmişdir.

Fərman və Sərəncamların, eyni zamanda icrası Dövlət Gömrük Komitəsinə həvalə edilmiş digər nörmativ-hüquqi aktların müvafiq bəndlərinin icrasına nəzarət edilməsi, qeyd olunan tapşırıqların icrasına dair rüblük, yarımillik, illik formatda hesabatlar Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasına göndərilməsini təmin etmişdir.

Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşması və bu siyasətin həyata keçirilməsi istiqamətində əhalinin məlumatlandırması, qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın Dövlət Gömrük Komitəsinin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilməsi, ümumilikdə informasiyaların daimi olaraq yenilənməsi təmin edilmişdir.

Ötən müddət ərzində 500-dən çox süjet, 215 videoçarx və 1 film hazırlanaraq elektron kütləvi informasiya vasitələrində yayımlanması təmin edilmişdir.

Koronavirus (Covid-19) infeksiyası ilə mübarizədə gömrükçülər aztəminatlı ailələrə və yaşı 65-dən yuxarı olan şəxslərə yardım aksiyasına öz töhfələrini vermiş, bununla əlaqədar 10 videoçarx hazırlanaraq Dövlət Gömrük Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmişdir.

44 gün davam edən Vətən müharibəsi dövründə hərbi-vətənpərvərlik ruhunda 10 videoçarx, 18 poster hazırlanaraq sosial şəbəkələrdəki səhifələr vasitəsilə yayımlanmış, pandemiya ilə əlaqədar isə mütəmadi olaraq videoçarxlar, məlumat xarakterli posterlər hazırlanmışdır. Ötən il ərzində 34 ədəd “Sual-cavab”, 14 ədəd həftəlik icmal videoçarxlar şəkilində hazırlanaraq Dövlət Gömrük Komitəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmişdir.

## XII. AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN 2020-Cİ İL 9 APREL TARİXİNDƏ MİLLİ MƏCLİSDƏ 2019-CU İLDƏKİ FƏALİYYƏTİ HAQQINDA HESABATININ MÜZAKİRƏSİ ZAMANI DEPUTATLAR TƏRƏFİNDƏN GÖMRÜK XİDMƏTİNƏ DAİR VERİLMİŞ TƏKLİFLƏR, TÖVSİYƏLƏR VƏ İRADLARLA BAĞLI GÖRÜLƏN TƏDBİRLƏR

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun 18 may 2020-ci il tarixli 6152aid saylı göstərişinə əsasən 9 aprel 2020-ci il tarixdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabatının müzakirəsi zamanı Azərbaycan Respublikasının Milli Məclisində deputatlar tərəfindən irəli sürülmüş təklif və tövsiyələrin 70-ci bəndində nəzərdə tutulan ölkədə təşviq sənədinin tətbiqinin ümumilikdə idxal olunan avadanlıq və qurğulara şamil olması barədə təklifinə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində aidiyyəti üzrə baxılmış və təşviq sənədinin idxal olunan bütün avadanlıq və qurğulara şamil olunmasının Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi üçün müəyyən olunan büdcə öhdəliyinin yerinə yetirilməsinə mənfi təsir edəcəyini nəzərə alaraq irəli sürülmüş təklifin tətbiqinin məqsədəuyğun hesab edilməməsi barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 01 iyun 2020-ci il tarixli 1000-120/002-22/009733 nömrəli məktubla müvafiq cavab verilmişdir.

İdxaləvəzedici malların yerli istehsalının və valyuta tutumlu malların ixracının stimullaşdırılmasında, rezident və qeyri-rezidentlər tərəfindən həyata keçirilən xarici ticarətin dövlət tənzimlənməsində özünəməxsus yer tutan Dövlət Gömrük Komitəsi respublikamızın suverenliyinin, iqtisadi və milli təhlükəsizliyinin, ölkə əhalisinin sağlamlığının qorunması, beynəlxalq ticarətin asanlaşdırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi,

gömrük orqanları xətti ilə toplanan büdcə təyinatlı ödənişlərin vaxtında büdcəyə köçürülməsi, gömrük sahəsində hüquqpozmalara və beynəlxalq terrorizmə qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi, habelə işğaldan azad olunmuş ərazilərdə gömrük fəaliyyətinin yaradılması işində öz səylərini əsirgəməyəcəkdir.

**Dövlət Gömrük Komitəsinin**
**sədri** **Səfər Mehdiyev**